

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 07 (849) ■ 22 fevral 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 53-cü Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün fevralın 16-da Almaniya Federativ Respublikasına işgüzar səfər edib. Münxenin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rəsmi şəxslər qarşılayıblar.**



«Cənub Qaz Dəhlizi» layihəsi başa çatdıqdan sonra Avropa üçün təbii qaz təchiz edən etibarlı və yeganə yeni qaz mənbəyi qismində Azərbaycanın rolu artacaq və Avropa ilə əlaqələr daha da güclənəcək

Dövlətimizin başçısı fevralın 17-də Münxendə «MAN SE» şirkətinin baş icraçı direktoru Yoaxim Dris ilə görüşüb. Yoaxim Dris Azərbaycanın sürətlə inkişaf etdiyini, ölkəmizdə irimiqyaslı layihələrin həyata keçirildiyini, nəqliyyat dəhlizləri ilə bağlı gedən proseslərdən məmnun qaldıqlarını, təmsil etdiyi şirkətin respublikamızda fəaliyyət göstərməkdə maraqlı olduğunu bildirib.

Prezident İlham Əliyev son illərdə Azərbaycanda müxtəlif sahələrdə yeniləşmə işlərinin aparıldığını, ictimai nəqliyyatın müasirləşdirilməsi istiqamətində mühüm tədbirlərin görüldüyünü vurğulayıb. Dövlətimizin başçısı əməkdaşlıq imkanlarının araşdırılması üçün «MAN SE» şirkətinin nümayəndələrini Azərbaycana səfərə dəvət edib.

Səfər çərçivəsində Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən «dəyirmi masa»da iştirak edib. Konfransın sədri Volfqanq İşinger müxtəlif ölkələrdən siyasətçilərin, biznes strukturlarının nümayəndələrinin, elm adamlarının iştirak etdiyi bu tədbirdə təhlükəsizlik, enerji və digər sahələrə aid mühüm məsələlərin müzakirə olunduğunu bildirib. V.İşinger Münxen Təhlükəsizlik Konfransını uzun müddətdir dəstəkləyən və onun dostu olan Prezident İlham Əliyevi salamlayıb və Azərbaycanın neft və qaz istehsalı sahəsində əhəmiyyətli bir ölkə, vacib tərəfdaş olduğunu diqqətə çatdırıb.

«Dəyirmi masa»da çıxış edən dövlətimizin başçısı enerji təhlükəsizliyini ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi olduğunu, bu baxımdan Azərbaycanın regionda enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynadığını bildirib. İrimiqyaslı qaz təchizatı layihəsinin həyata keçirilməsi sayəsində ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da öz vacib rolunu oynayacağını xatırladıb. Enerji ehtiyatlarının şaxələndirilməsinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, bəzi Avropa ölkələri neftin 30-40 faizini Azərbaycandan əldə edirlər və etibarlı tranzit ölkə, digər ölkələrin etibar edə biləcəyi tərəfdaş kimi Azərbaycan regionda özünə ad qazanıb: «Bu gün çoxsaylı digər ölkələr, şirkətlərlə birlikdə və Avropa Komissiyasının dəstəyi ilə biz «Cənub Qaz Dəhlizi» layihəsini icra edirik. Bu layihə 1990-cı illərdə icrasına başladığımız layihələrin davamıdır. Azərbaycanda böyük qaz yataqlarını aşkar edən kimi bu qazı beynəlxalq bazarlara nəql etmək üçün qərar qəbul olunub. İndi «Cənub Qaz Dəhlizi», məndə olan məlumata görə, Avropada ən böyük infrastruktur layihəsidir. Onun ümumi dəyəri 40 milyard dollardan çoxdur. Hazırkı mərhələdə bu layihədə 7 ölkə iştirak edir. Gələcək illərdə ən azından 3 ölkə bu layihəyə qoşulacaq».

Azərbaycan Prezidenti bildirib ki, «Cənub Qaz Dəhlizi» artıq reallıqdır və Azərbaycanı Avropa bazarları və Avropa bazarlarına aparan marşrut boyunca yerləşən ölkələrlə birləşdirən üç fərqli boru kəmərindən ibarət inteqrasiya olunmuş boru kəməri sistemidir: «Bu layihə tamamilə yeni bir regional əməkdaşlıq formatını yaratdı. Söhbət Cənubi Qafqaz ölkələri olan Gürcüstan, Azərbaycan və Türkiyədən, sonra da Yunanıstan, Bolqarıstan və İtaliya kimi Avropa İttifaqı ölkələrindən, həmçinin namizəd ölkə kimi Albaniyadan gedir. Beləliklə, bütün bu tərəflərin maraqlarını təmin etmək asan iş deyil. Bu səbəbdən Avropa Komissiyası ilə birlikdə biz «Cənub Qaz Dəhlizi» layihəsinin Məşvərət Şurası adlanan formatı işə saldıq. Artıq Məşvərət Şurasının iki iclası Bakıda keçirilib və üçüncü iclas cənab Şefçoviçin iştirakı ilə fevral ayının 23-də baş tutacaq. Mühüm nailiyyətlər var. Sizə deyə bilərəm ki, «Cənub Qaz Dəhlizi» layihəsinin əsas seqmenti olan Trans-Anadolu boru kəmərinin icrasının təqribən 65 faizi artıq tamamlanıb. Cənubi Qafqaz boru kəməri adlanan digər bir seqmentin icrasının 80 faizə yaxın hissəsi tamamlanıb və TAP adlanan Trans-Adriatik boru kəməri təqribən 34-35 faiz icra olunub. Dünyada ən böyük qaz yataqlarından biri olan «Şahdəniz» yatağının işlənilməsi artıq 90 faiz tamamlanıb. Hədəfimiz Azərbaycanın ilk təbii qazını gələn il bazarlara çatdırmaqdır və bəzi tərəfdaş ölkələrdə süni gecikmələr olmadığı təqdirdə bu layihəni 2020-ci ilə qədər tamamlamaqdır».

Prezident İlham Əliyev qeyd edib ki, enerji sahəsində ölkələr arasında yeni əməkdaşlıq formatı regionda tamamilə yeni bir əməkdaşlıq ruhunu yaradır: «Bu, birgə bağlılıq, yəqinlik, etibarlılıq və tərəfdaşlıq yaradır. Beləliklə, layihə tamamlandıqdan sonra Avropa üçün təbii qaz təchiz edən etibarlı və yeganə yeni qaz mənbəyi qismində Azərbaycanın rolu əlbəttə ki, artacaq və Avropa təşkilatları ilə əlaqələrimiz güclənəcək».

Həmin gün dövlətimizin başçısı Münxendə Xorvatiya Respublikasının Prezidenti Kolinda Qrabar-Kitaroviç, İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman, Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşlər keçirib.

BMT-nin baş katibi Antonio Quterreş ilə görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub. Prezident İlham Əliyev danışıqlar prosesində ciddi irəliləyişin olmamasından təəssüfləndiyini bildirərək qeyd edib ki, son zamanlar Ermənistan tərəfi danışıqlarda az qala könülsüz iştirak edir, münaqişənin həlli istiqamətində əldə olunan müəyyən razılaşmaları pozur.

Fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirə keçirilib. Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər. Panel-müzakirənin aparıcısı, Avrasiya Qrupunun sədri və təsisçisi Yan Bremmer Avrasiya regionunun əhəmiyyəti və bu regionda gedən proseslər barədə məlumat verib.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın Asiya ilə Avropa arasında yerləşdiyini, əsrlər boyu sivilizasiyaların qovuşduğu bir məkan, ölkə və beynəlxalq arenada etibarlı tərəfdaş olduğunu vurğulayıb.

Ölkəmizdə aparılan siyasi, iqtisadi, hüquqi islahatlardan danışan dövlətimizin başçısı Azərbaycanın qonşularla regional əməkdaşlığın yeni formatını tətbiq etdiyini, təşəbbüskar qismində çıxış etdiyimiz enerji və nəqliyyat layihələrinin Avropanın enerji təminatında mühüm rol oynadığını xatırladıb. Dağlıq Qarabağ probleminə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, üzləşdiyimiz problemlərdən ən böyüyü Ermənistan tərəfindən Azərbaycan ərazisinin davamlı işğalıdır: «Bu da Ermənistan tərəfindən etnik təmizləmə və ərazimizin 20 faizinin işğalı ilə nəticələnmişdir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Bu qətnamələr iyirmi ildən artıqdır ki, kağız üzərində qalmaqdadır. Bütün münaqişələrin həlli eyni prinsipə, eyni yanaşmaya əsaslanmalıdır. Hər bir ölkənin ərazi bütövlüyünə hörmət edilməlidir, onu pozmaq olmaz. Beynəlxalq səviyyədə tanınan sərhədlər güc yolu ilə dəyişdirilə bilməz. Ermənistan və Azərbaycan arasında münaqişə həmçinin region üçün ən böyük təhlükədir. Bizim konstruktiv siyasətimiz münaqişənin BMT Təhlükəsizlik Şurasının və digər vacib təşkilatların qəbul etdiyi qətnamələr əsasında sülh yolu ilə ən tez nizamlanması məqsədini daşıyır».

Sonra moderatorun sualına cavab verən Prezident İlham Əliyev hazırda ölkəmizin qədim «İpək Yolu»nun bərpasında yaxından iştirak etdiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkildiyini, bu yolun fəaliyyətə başladığı təqdirdə Azərbaycan ərazisindən daşınmaların artacağını və təbii ki, bunun da milli iqtisadiyyatımıza müsbət təsir göstərəcəyini vurğulayıb.

Tədbirin aparıcısının Rusiya-Türkiyə münasibətlərinin yenidən nizamlanmasında rəsmi Bakının mövqeyi ilə bağlı sualına cavab verən Prezident İlham Əliyev bildirib ki, Azərbaycanın öz qonşuları olan İran, Türkiyə və Rusiya ilə yaxşı münasibətləri var və bu, qarşılıqlı hörmətə əsaslanır. Qonşularımız arasında baş verən gərginliklərin Azərbaycanı da narahat etdiyini və bu cür halların regional sabitliyə təhlükə yaratdığını deyən dövlətimizin başçısı Azərbaycanın Türkiyə-Rusiya münasibətlərinin normallaşmasında fəal iştirak etdiyini vurğulayıb. Bu məqsədlə həm Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, həm də Rusiya Prezidenti Vladimir Putinlə danışdığını, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin də vasitəçilik prosesində iştirak etdiyini və tərəflərin vəziyyəti qiymətləndirib düzgün qərar verdiklərini diqqətə çatdırıb.

Prezident İlham Əliyev bir neçə gün əvvəl ABŞ və Rusiya Baş qərargah rəislərinin Bakıda keçirilən görüşünü də şərh edib: «Bakının seçilməsi qərarı bizim deyildi. Biz bu qarşılıqlı əlaqənin təşəbbüskarı kimi çıxış etməmişdik. Bizə yaxınlaşaraq bizim buna razı olub-olmamağımız soruşulmuşdu. Biz dedik ki, əlbəttə, buna razıyıq. Bəs nəyə görə Azərbaycan seçildi? Mən bu sualı özümə verdim. Avrasiyanın xəritəsinə baxaraq gördüm ki, ola bilsin, Azərbaycan onların görüşə biləcəyi yeganə məkandır. Biz NATO-nun üzvü deyilik. Biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyilik. Biz güclü beynəlxalq nüfuza malik olan ölkəyik. Biz ABŞ, Avropa və qonşularımız, Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkəyik. Buna görə də artıq nəinki təkcə bizim regionda, həm də daha geniş miqyasda Azərbaycanın sabitləşdirici amil kimi rolu artacaqdır».

«Avropanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında rolu ilə bağlı gözləntiləriniz nədir?» sualına cavabında Prezident İlham Əliyev bildirib ki, təəssüf ki, baş verən hadisələrə görə Ermənistana sanksiyalar tətbiq olunmayıb və bu ikili yanaşma aradan qaldırılmalıdır. Dövlətimizin başçısı səylərin birləşdirilməsi və təcavüzkar Ermənistana torpaqları boşaltmaqla bağlı təzyiq göstəriləcəyi təqdirdə münaqişənin tezliklə həll olunacağına ümid etdiyini diqqətə çatdırıb.

## Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli Sərəncamı ilə Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

Həmin gün dövlət başçısının sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı Təhlükəsizlik Şurasının üzvlərinə təqdim edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iclasda çıxış ediblər.

## Mövcud tərəfdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunub

Prezident İlham Əliyev fevralın 20-də Qətər Dövlətinin təhsil və ali təhsil naziri Məhəmməd bin Əbdülvahid Əl-Həmmadini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Qətər arasında çox yaxın tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu, əlaqələrin mümkün qədər çox sahələri əhatə etməsinin vacibliyini qeyd edib, qarşılıqlı səfərlərin ölkələrimiz arasında mövcud tərəfdaşlıq əlaqələrinin yaxşı göstəricisi olduğunu vurğulayıb. Təhsilin gələcək nəsillər, eyni zamanda ölkələrimizin inkişafında vacib rol oynadığını deyən Prezident İlham Əliyev bu sahənin həm Azərbaycanda, həm də Qətərdə inkişafın əsas prioritetlərindən biri hesab olunduğunu vurğulayıb. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan-Qətər Birgə İqtisadi, Ticarət və Texniki Komissiyasının yaradılmasının qərara alındığını deyən Prezident İlham Əliyev bu komissiyanın işi çərçivəsində nəinki iqtisadi, həmçinin əməkdaşlığımızın bütün sahələrini əhatə edəcək müzakirələrin aparılacağına ümidvar olduğunu bildirib.

Qətər Dövlətinin təhsil və ali təhsil naziri Məhəmməd bin Əbdülvahid Əl-Həmmadi Azərbaycan ilə Qətər Dövləti arasında təhsil sahəsində möhkəm əməkdaşlıq əlaqələrinin qurulacağına ümidvar olduğunu bildirib.

## Azərbaycan beynəlxalq sülhməramlı əməliyyatlarda fəal iştirak edir

Prezidenti İlham Əliyev fevralın 16-da ABŞ-ın Baş Qərargahlar rəisi general Cozef Danfordun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin hərbi, siyasi, iqtisadi, enerji təhlükəsizliyi, müdafiə, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulanıb.

General Cozef Danford Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirib, ölkəmizin Əfqanıstana yük daşımalarına önəmli töhfə verdiyinə görə təşəkkürünü bildirib. Söhbət zamanı ABŞ-ın Baş Qərargahlar rəisinin Azərbaycana səfərinin müdafiə sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olunub, ölkələrimiz arasında dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyi vurğulanıb.

### BU NÖMRƏMİZDƏ

AZƏRBAYCAN VƏ DANİMARKA ARASINDA İKİQAT VERGİTUTMANIN ARADAN QALDIRILMASI HAQQINDA KONVENSİYA İMZALANDI 2

SAHİBKARLAR MÖVCUD İMKANLARDAN MAKSİMUM YARARLANMALIDIRLAR 3

MÜASİR MEXANİZMLƏRİN TƏTBİQİ VERGİ ÖDƏYİCİLƏRİNİN İŞİNİ ASANLAŞDIRIR 4

ALTERNATİV GƏLİR MƏNBƏLƏRİNİN TAPILMASI BAŞLICA MƏQSƏDLƏRDƏNDİR 5

# Azərbaycan və Danimarka arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya imzalandı

Fevralın 17-də Vergilər Nazirliyində «Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nın imzalanması mərasimi keçirilib. Konvensiyanı Azərbaycan tərəfdən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov, Danimarka tərəfdən isə həmin ölkənin vergilər naziri Karsten Lauritzen imzalayıblar.



Vergilər naziri Fazil Məmmədov ikiqat vergitutmanın aradan qaldırılmasının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına töhfə verəcəyini, eləcə də vergidən yayınmanın qarşısının alınmasına xidmət edəcəyini vurğulayıb. Danimarkanın vergilər naziri Karsten Lauritzen isə bu sənədin hər iki ölkənin şirkətləri və iş adamları üçün geniş imkanlar açdığını qeyd edib.

Son illər ölkəmizin ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər şəbəkəsi əhəmiyyətli dərəcədə genişlənib. Bu günə kimi 52 ölkə ilə müvafiq sazişlər imzalanıb. Bunlardan 48-i artıq qüvvəyə minib, qalanları isə müvafiq prosedurlar tamamlandıqdan sonra hüquqi təsdiqini tapacaq.

İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin əsas məqsədi mal və xidmətlərin sərbəst beynəlxalq mübadiləsinə maneçilik törədən vergi maneələrinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət və sərmayə qoyuluşunu təşviq etməkdir. Beynəlxalq vergi müqavilələrinin mövcudluğu vergi ödəyicilərinə münasibətdə ayrı-seçkiliyə yol verilməyəcəyinə təminat verir. Dövlətlər üçün isə bu, ziddiyyətli məsələlər üzrə birbaşa qarşılıqlı məsləhətləşmələrin aparılmasına və vergi məlumatlarının mübadiləsinə imkan yaradır.

İkiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər hazırlanarkən, ilk növbədə, ölkəmizin iqtisadi əlaqələrinin geniş olduğu dövlətlərə xüsusi diqqət yetirilir. İndiyəcək imzalanmış müqavilələrdən 23-ü Avropa İttifaqına üzv ölkələri, qalanları isə respublikamızın əsas xarici ticarət tərəfdaşlarını, iqtisadi əlaqələrimizin mövcud olduğu və ya iqtisadi maraq doğuran dövlətləri əhatə edir.

Bu gün beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artması, iqtisadi və ticarət əlaqələrinin sürətlə artması mövcud sazişlər şəbəkəsinin daha da genişləndirilməsini və yeni tərəfdaşların cəlb edilməsini obyektiv zərurətə çevirir. Hazırda Vergilər Nazirliyi bu istiqamətdə sistemli iş aparır. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərməklə yanaşı, həm də vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi orqanlarının bir-birinə qarşılıqlı yardım göstərməsi üçün əlavə imkanlar yaradır.

# Hava soyuq olsa da, burada insanlar çox istiqanlıdırlar...

Vergilər Nazirliyində «Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nın imzalanması mərasimindən sonra Danimarkanın vergilər naziri Karsten Lauritzen qəzetimizə müsahibə verib.



**- Cənab Lauritzen, Azərbaycan və Danimarka arasında iqtisadi əlaqələri necə qiymətləndirərdiniz?**

- Dünya iqtisadiyyatının inkişafı və mərhələli inteqrasiyası təsərrüfat subyektlərinə müxtəlif ölkələrdə gəlirlər əldə etmək imkanı verir və artıq dövlət sərhədləri biznes üçün maneə deyildir. Lakin dünyanın hər bir dövləti ölkənin rezidentləri və qeyri-rezidentləri tərəfindən əldə olunan gəlirlərdən vergiləri tutmağa, vergi ödəyicilərinin gəlirlərinə özünün vergi qanunlarını tətbiq etməyə çalışır. Vergi xidməti həmişə dövlətlər arasında düzgün siyasi əlaqələrin, qarşılıqlı münasibətlərin yaranmasına yardımçı olub. Bizim ölkələrimiz arasında da bu sahədə sıx, məhsuldar iqtisadi əlaqələr mövcuddur.

İnvestisiyalara və biznes sahəsində münasibətlərə gəldikdə, düşünürəm ki, ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı imzaladığımız sazişlə biz bu imkanlarımızı daha da artırmış oluruq. İkiqat vergitutmanın aradan qaldırılmasının ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına töhfə verəcəyini, eləcə də vergidən yayınmanın qarşısının alınmasına xidmət edəcəyini düşünürük. Bu sənəd hər iki ölkənin şirkətləri və iş adamları üçün geniş imkanlar açacaqdır.

**- Sizcə, ölkələrimiz arasında mövcud ticarət dövriyyəsini artırmaq imkanları varmı?**

- Azərbaycan ilə Danimarka arasında iqtisadi sahədə yaxşı münasibətlər mövcuddur. Əlaqələrimiz bu gün də davam edir. Ölkələrimiz arasında həm vergi, həm də gömrük xidməti sahəsindəki münasibətlər beynəlxalq əməkdaşlığımızı, mövcud ticarət əlaqələrini bir az da inkişaf etdirmək imkanı verir.

Azərbaycan artıq neftdən asılı iqtisadiyyatdan uzaqlaşaraq, post-neft dövrünü yaşayır. Bu gün Azərbaycan iqtisadiyyatından danışanda yalnız neftlə kifayətlənmirlər, ölkə iqtisadiyyatı kifayət qədər şaxələndirilib və sözün həqiqi mənasında, böyük və hərtərəfli sənaye kompleksi yaradılıb. Bir çox sahələr, xüsusilə kənd təsərrüfatı üzrə Danimarka şirkətləri Azərbaycana böyük maraq göstərirlər. Yəqin ki, yaxın zamanlarda bu sahədə mühüm irəliləyişlər olacaq.

**- Danimarka şirkətləri Azərbaycanda olan əlverişli investisiya mühitindən necə yararlanırlar?**

- Ümumiyyətlə, iqtisadiyyatın sürətli templə inkişaf etməsində xarici investisiyaların rolu çox əhəmiyyətlidir. Azərbaycan iqtisadiyyatında müqayisəli üstünlüklərin mövcudluğu, qeyri-neft sektorunun rolunun davamlı şəkildə genişlənməsi və istehlakın artması əcnəbi investorların nəzərindən qaçmır. Danimarkanın bir çox böyük şirkətləri Azərbaycana investisiya yatırmağa maraqlıdırlar. Güman edirəm ki, ikiqat vergitutma ilə bağlı sazişin imzalanmasından sonra bu, reallığa çevriləcək. Lakin müəyyən sayda kiçik və orta müəssisələrin bu istiqamətdə maraqlarını artırmaqda müəyyən problemlər var. Bu da yəqin ki, yaxın zamanlarda aradan qalxacaqdır.

**- Qlobal iqtisadi proseslər Avropa ölkələrinə hansı təsirləri ilə seçilir?**

- Bu, artıq iqtisadiyyata baxış bucağını dəyişməyə ehtiyac olduğu haqqında bir işarədir. İqtisadiyyatda daha yaxşı imkanlar əldə etmək üçün çox işləməli, əvvəlki iş üsullarından fərqlənən yeni mexanizmlərə müraciət olunmalıdır.

Dünyada davam edən iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun sistem xarakterli tədbirlər həyata keçiririk. Sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması prioritetlərini axtarırıq.

Bu dəyişikliklər qlobal mənada həm Danimarka, həm də Azərbaycan üçün çox önəmlidir. Bu sahədə artıq fərdi yanaşma üsullarına ehtiyac var.

**- Azərbaycanla Danimarka arasında imzalanan ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişin ölkələrimiz üçün əhəmiyyəti barədə fikirlərinizi bilmək istərdik...**

- Hazırda dünyanın əksər ölkələri ikiqat vergitutmanın beynəlxalq ticarət, kapitalın sərbəst hərəkəti və bazarların inkişafı üçün maneələr yaratdığı qənaətinə gəlmişlər. Ona görə də dövlətlər ikiqat vergitutma problemini daxili qanunvericiliyin dəyişdirilməsi və beynəlxalq sazişlərin bağlanması yolu ilə həll etməyə çalışırlar.

Son dövrlərin iqtisadi göstəricilərinə əsasən, ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi aşağı səviyyədədir. Bu da müəyyən mənada Azərbaycanda çox az sayda danimarkalı iş adamları və şirkətlərinin olmasından irəli gəlir. Ümid edirəm ki, bu saziş imzalandıqdan sonra onların sayı artacaqdır. Bu isə son nəticədə Danimarka şirkətlərinin Azərbaycan büdcəsinə daha çox vergi ödəyəcəyi deməkdir.

**- Ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər hazırlanarkən hansı meyarlar əsas götürülür?**

- İkiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan sazişlər hazırlanarkən, ilk növbədə, ikitərəfli iqtisadi əlaqələrin geniş olduğu dövlətlərə xüsusi diqqət yetirilir. Bu sazişlərin əsas məqsədi mal və xidmətlərin sərbəst beynəlxalq mübadiləsinə əngəl törədən vergi maneələrinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət və sərmayə qoyuluşunu təşviq etməkdir. Beynəlxalq vergi müqavilələrinin mövcudluğu vergi ödəyicilərinə münasibətdə ayrı-seçkiliyə yol verilməyəcəyinə təminat verir. Dövlətlər üçün isə bu, ziddiyyətli məsələlər üzrə birbaşa qarşılıqlı məsləhətləşmələrin aparılmasına və vergi məlumatlarının mübadiləsinə imkan yaradır. Danimarka nöqteyi-nəzərindən yanaşsaq, bizdə başlıca olaraq ölkələrin vergiqoyma prinsipləri əsas götürülür. Bizim üçün həmin ölkələrdə nələrə vergi tətbiq olunması çox önəmlidir. Amma ümumilikdə əsas məqsəd iş adamlarının iki dəfə vergiyə cəlb edilməməsidir. Burada da biznesin təşviqi əsas götürülür.

Danimarkada belə bir prinsip mövcuddur ki, hansı ölkədə gəlir vergisi yoxdursa, biz o ölkə ilə saziş imzalamaq istəmirik. Bizdə gəlir vergisi var, o ölkədə isə yoxdur. Bu o deməkdir ki, biz gedib orada gəlir vergisi ödəməyəcəyik. Bununla həmin ölkəyə qarşı ədalətsizlik etmiş oluruq...

Biz ədalət prinsipinin qorunmasına xüsusi həssaslıqla yanaşırıq. Yəni əsas məsələ o deyil ki, şirkətlər, iş adamları eyni vergini iki dəfə ödəməsinlər. Meyarımız, işimizin əsas qayəsi odur ki, vergilər düzgün və ədalətli toplansın, qanunvericiliyə əməl olunsun.

**- Azərbaycana ilk gəlişinizdir. Ölkəmiz haqqında təəssüratlarınız...**

- Bu sualınıza bir cümlə ilə cavab vermək istəyirəm: hava soyuq olsa da, insanlarınız çox istiqanlıdırlar...

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Vergi Məcəlləsinə dəyişikliklər müsbət qiymətləndirilir

**Kristofer Ueyls:** *«Azərbaycanın vergi orqanları dünyanın ən müasir texnoloji yeniliklərini tətbiq etməyə çalışır»*

Avropa İttifaqının (Aİ) Texniki Yardım və İnformasiya Mübadiləsi (TAIEX) proqramı çərçivəsində ölkəmizdə səfərdə olan qurumun ekspert missiyası ilə Vergilər Nazirliyində görüş keçirilib. Tədbirdə çıxış edən TAIEX-in eksperti Kristofer Ueyls proqrama uyğun olaraq Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin, o cümlədən vergi siyasətinin qiymətləndirilməsinin aparıldığını bildirib. Cənab Ueyls vergi sisteminin dinamik sahə olduğunu, buna görə də daim mütərəqqi yeniliklərin, innovasiyaların tətbiqini, davamlı islahatların həyata keçirilməsini tələb etdiyini bildirərək qeyd edib ki, Azərbaycanın vergi orqanları dünyanın ən müasir texnoloji yeniliklərini tətbiq etməyə çalışır. O, fiziki və hüquqi şəxslərin elektron qeydiyyatı, elektron bəyannamələrin təqdim edilməsi, vergi və rüsumların elektron formada ödənilməsi kimi yenilikləri müsbət dəyərləndirdiyini bildirib.

Kristofer Ueyls Azərbaycanın vergi qanunvericiliyinə edilmiş yeni dəyişikliklərə də toxunaraq deyib ki, dəyişikliklər müsbət xarakterlidir, səmərəli fiskal siyasətin həyata keçirilməsinə xidmət edir: «Vergi qanunvericiliyindəki dəyişikliklər, ilk növbədə, ölkənin fəal fiskal siyasət həyata keçirməsinin göstəricisidir, eyni zamanda qeyri-neft sektorunun və sahibkarlıq subyektlərinin dəstəklənməsini, təşviqini nəzərdə tutur. Hazırkı dövrdə Azərbaycanda həyata keçirilən aktiv vergi siyasəti iqtisadi proseslərə çevik uyğunlaşmaq, iqtisadiyyatın digər sektorlarının inkişafına təkan vermək, büdcə daxilolmalarında neft gəlirlərindən real sektora keçilməsini təmin etmək baxımından əhəmiyyətlidir. Ekspert elektron auditin və elektron qaimə-fakturanın tətbiqinin, risklərin idarə edilməsinin, transfer qiymətləndirmə hallarının aradan qaldırılmasının, vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların beynəlxalq təcrübəyə uyğunlaşdırılmasının və digər dəyişikliklərin vergi qaçaqçılığının qarşısının alınmasında, şəffaflığın təmin olunmasında və ümumilikdə vergi sisteminin inkişafında mühüm rol oynayacağına inandığını vurğulayıb.

K. Ueyls qeyd edib ki, Azərbaycanda həyata keçirilən fiskal siyasətin bir sıra istiqamətləri, o cümlədən vergi ödəyicilərinin uçot məlumatları, vergidən yayınma risklərinin idarə edilməsi, könüllü əməletmə səviyyəsinin vəziyyəti, vergi mübahisələrinin həlli, hesabatlılıq və şəffaflıq sahələrində qiymətləndirmələrin davam etdirilməsi nəzərdə tutulur.

> Azərbaycanda həyata keçirilən aktiv vergi siyasəti iqtisadi proseslərə çevik uyğunlaşmaq, iqtisadiyyatın digər sektorlarının inkişafına təkan vermək, büdcə daxilolmalarında neft gəlirlərindən real sektora keçilməsini təmin etmək baxımından əhəmiyyətlidir

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva görüş iştirakçılarının nəzərinə çatdırıb ki, Azərbaycanda aparılan vergi siyasəti həyata keçirilən ümumi iqtisadi siyasətin tərkib hissəsini təşkil edir. Hazırda ölkədə tətbiq olunan yeni iqtisadi modelə uyğun olaraq çevik və səmərəli vergi siyasəti həyata keçirilir. Vergi siyasəti əsas etibarilə büdcə daxilolmalarının təmin edilməsinə, könüllü vergi əməletmə səviyyəsinin yüksəldilməsinə, investisiya və biznes fəaliyyətinin yaxşılaşdırılmasına və vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edir. Aparılan siyasətə uyğun olaraq, vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, kiçik və orta sahibkarlığın stimullaşdırılması, rəqabət mühitinin təmin edilməsi üçün əlavə tədbirlər görülüb.

Xarici sərmayəçilərin Azərbaycanda geniş və hərtərəfli fəaliyyəti üçün əlverişli şəraitin yaradıldığını deyən S.Musayeva həyata keçirilən səmərəli vergi siyasəti nəticəsində əcnəbi iş adamları tərəfindən ölkə iqtisadiyyatına yatırılan sərmayələrin artdığını vurğulayıb. Onun sözlərinə görə, bir sıra dövlətlərlə gəlirlərə və əmlaka vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, eləcə də investisiyaların təşviqinə və qorunmasına dair sazişlərin imzalanması xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırır.

Hazırda əcnəbi sərmayəçilərin fəaliyyətinin daha da stimullaşdırılması məqsədilə dövlət tərəfindən müəyyən güzəştlərin edildiyini vurğulayan S.Musayeva elektron qeydiyyatın sadələşdirilməsi, ixracın təşviqi, stimullaşdırıcı verginin tətbiqi və digər tədbirlərin aparılmasının biznesin geniş fəaliyyətinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

**ELBRUS**


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin fevral və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin fevral və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnaməni imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Sahibkarlar mövcud imkanlardan maksimum yararlanmalıdırlar



Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbovun «Vergilər» qəzetinə müsahibəsi

**- Şamil müəllim, «Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında» Qanunun qüvvəyə minməsindən iki aya yaxın vaxt keçib. Dəyişikliklərin vergi ödəyicilərinə çatdırılması üçün hansı tədbirlər görülüb?**

- Vergilər Nazirliyi tərəfindən yanvar ayı ərzində regionlarda keçirilən silsilə görüşlərdə geniş maarifləndirmə və təşviqat işləri aparılıb, qanunvericiliyə olunmuş dəyişikliklərin izahı ictimaiyyətə çatdırılıb. Bütün fəaliyyət sahələri üzrə vergi ödəyicilərinin iştirakı ilə sahibkarlara qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamə və hesabat formaları barədə də məlumat və izahlar verilib. Azərbaycanın bütün regionlarını əhatə edən 3500-dən artıq sahibkarın qatıldığı bu tədbirlər yüksək fəallıq şəraitində keçib, vergi ödəyicilərinin qanunvericiliyin tətbiqinə dair çoxsaylı sualları cavablandırılıb. Ödəyicilərin üzərinə düşən öhdəliklərin mahiyyəti izah edilib, onların yerinə yetirməli olduqları məsələlərin həlli yolları göstərilib.

İlin əvvəlindən nazirlik tərəfindən digər normativ sənədlər qəbul edilib, mövcud normativ aktlarda müvafiq dəyişikliklər aparılıb, bir sıra sənədlərin formaları və tərtib olunması qaydaları, yeni bəyannamə və hesabat formaları hazırlanaraq təsdiq edilib. Vergilər nazirinin əmri ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin həlli, vergi nəzarətinin səmərəliliyinin artırılması, təhlil bazasının genişləndirilməsi məqsədilə mövcud bəyannamələrə, hesabatlara, onların əlavələrinə və tərtib olunması qaydalarına dəyişiklik edilib, bir sıra bəyannamələrə yeni əlavələr təsdiq olunub. Əlavə dəyər, mənfəət, gəlir, torpaq, mədən, yol vergilərinin, sadələşdirilmiş verginin bəyannamələri, onların əlavələrinin, habelə ödəmə mənbəyində tutulan vergi və aksiz bəyannaməsinin formaları və tərtib edilmə qaydaları yeni redaksiyada təsdiq olunub. Aparılan islahatlar çərçivəsində vergi öhdəliklərini aylıq sabit vergi şəklində ödəyəcək bir qrup vergi ödəyicisinə sabit verginin ödənilməsi haqqında qəbz (patent) təqdim olunub, yaxın günlərdə şəffaf vergi partnyorlarına sertifikatların verilməsi təmin ediləcək.

Nazirliyin ayrı-ayrı strukturları, o cümlədən ərazi vergi departamentləri və idarələri, vergi ödəyicilərinə xidmət mərkəzləri sahibkarların suallarını operativ şəkildə cavablandırırlar. Nazirliyin rəsmi internet saytındakı xüsusi bölmənin köməyi ilə sahibkarların qanunvericiliyə dəyişikliklərlə bağlı məlumat alması, müraciət etmələri, öz təkliflərini təqdim etmələri üçün hər cür imkan yaradılıb. Ödəyicilər qanunvericiliklə bağlı internet, KİV vasitəsilə daimi olaraq məlumatlandırılır, vergilərlə bağlı metodiki materiallar, broşürlər hazırlanıb vergi ödəyicilərinə çatdırılır, müxtəlif tematik seminarlar və görüşlər keçirilir.

**- Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı sahibkarlara çatdırılan məlumatların əsas məqamları nədən ibarətdir?**

- Sahibkarlara hərtərəfli diqqət və qayğının göstərilməsi, əlverişli biznes və vergi mühitinin təmin edilməsi, vergi ödəyicilərinin fəaliyyətinin genişlənməsi ölkəmizdə aparılan iqtisadi siyasətin əsas hədəflərindəndir. Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin böyük bir qismi də məhz sahibkarların geniş fəaliyyəti üçün daha əlverişli şərait yaradılmasına xidmət edir. Dəyişikliklərin əsas məqsədi ölkədə sahibkarlığın və investisiyaların təşviqi, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsidir. Bu məqsədlə bir sıra vergi güzəştləri tətbiq olunub, stimullaşdırıcı və vergi yükünü optimallaşdıran mühüm addımlar atılıb. Buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı, habelə quş ətinin satışı 3 il müddətinə ƏDV-dən, icbari tibbi sığorta xidmətləri göstərən müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin gəlirlərinin müddətsiz olaraq mənfəət vergisindən azad olunması, ödəmə qabiliyyətini itirmiş bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim olunmasının 3 il müddətinə ƏDV-dən azad edilməsi bu siyasətin mühüm tərkib hissəsi hesab oluna bilər. Eləcə də pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək məqsədilə ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni ticarət əlavəsindən hesablanır. Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddətləri də azaldılıb. Bu dəyişikliklər vergi ödəyicilərinin vergi yükünün azaldılmasına, onların dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə və bütövlükdə sahibkarlığın inkişafına şərait yaradır.

**- «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanunun icrası hansı səviyyədədir?**

- Bu qanunla yaranmış borclar üzrə sahibkarlara hesablanmış faizlər və maliyyə sanksiyalarının tam silinməsi, digər maliyyə sanksiyaları üzrə isə müəyyən edilmiş şərtlər daxilində silinmələr üçün şans verilib. Yanvarın 16-na qədər 96 min vergi ödəyicisinin 727 milyon manat həcmində vergi borcu silinmiş, daha 26.700 min ödəyiciyə isə 357 milyon manat həcmində vergi borcunun silinməsi üçün vaxt verilmişdi.

İndi əsas iş sahibkarların üzərinə düşür, onlar bu imkanlardan maksimum yararlanmalıdırlar. Öz fəaliyyətlərini yeni tələblərə uyğun qurmalı, uçot sahəsində şəffaflığı təmin etməli və vergi öhdəliklərini vaxtında yerinə yetirməlidirlər.

**- Elektron qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyicilərinin hazırlıq səviyyəsi necədir?**

- Sahibkarlarla keçirilən görüşlərdə bununla bağlı onlara ətraflı məlumatlar verildi, e-qaimənin tətbiqinə hazırlaşmaları tövsiyə olundu. Artıq aprelin 1-nə az müddət qalıb, ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər üçün bu qaydalar cari il aprelin 1-dən tətbiq olunduğundan, onların bu yeniliyə hazırlığı ilə bağlı təşviqat işləri daha da gücləndirilib. Elektron qaimə-fakturanın tətbiqi vergi ödəyicilərinin özləri üçün müsbət əhəmiyyət daşıyır. Əsas üstünlüyü isə kargüzarlıq xərclərinin və vaxt itkisinin azaldılmasıdır. Bu baxımdan, bu yeniliyə sahibkarların məsuliyyətlə yanaşmaları tövsiyə olunur.

Proqnozlarımıza görə, e-qaimə-fakturanın tətbiqi vergi daxilolmalarının artmasına da təsir göstərəcək. Məsələn, 2013-cü ildə Vergilər Nazirliyi ƏDV ödəyiciləri üçün ilk dəfə e-fakturanın tətbiqinə başladı və nəticəsi müsbət oldu: həmin il dövlət büdcəsinə ƏDV üzrə vergi daxilolmalarının həcmi əvvəlki illə müqayisədə 70% artdı.

**- Məcəlləyə dəyişikliklərdən sonra sahibkarlar tərəfindən müxtəlif suallar qaldırılır. Ortaya çıxan aktual məsələlərin təhlili aparılırmı?**

- Təbii ki, hər bir yeni qəbul olunan sənədin tətbiqi zamanı müəyyən suallar meydana çıxır, sahibkarlar müxtəlif hüquqi və texniki xarakterli çətinliklərlə rastlaşırlar. Məsələn, regionlarda çalışan sahibkarların böyük əksəriyyəti sadələşdirilmiş vergi ödəyiciləridir. Bu ildən sadələşdirilmiş vergi bəyannamələrinin yeni formaları müəyyən edilib. Bəyannamə formaları ilə bağlı çətinlik yaranmaması üçün sahibkarlara xeyli izahedici məlumatlar verilib, praktiki baxımdan lazımi kömək göstərilib.

Sıx və açıq dialoq, geniş müzakirələr şəraitində əldə edilən ortaq yanaşmalar qanunvericiliyin təkmilləşdirilməsinə öz mühüm təsirini göstərir, azad biznesə dəstəyin daha da yaxşılaşmasına əlverişli imkan yaradır

Vergilər Nazirliyi vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması məqsədilə qanunvericiliyə dəyişikliklər edilərkən biznes strukturlarının, onların ictimai təşkilatlarının rəyini həmişə nəzərə alıb, təklifə diqqətlə yanaşıb. Qanunvericiliklə bağlı vergi orqanları və biznes arasında qarşılıqlı əlaqənin genişləndirilməsi davam etdiriləcək. Sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı vergi ödəyicilərinin rəy və təklifləri həmişə öyrənilir və öyrəniləcək. Sıx və açıq dialoq, geniş müzakirələr şəraitində əldə edilən ortaq yanaşmalar qanunvericiliyin təkmilləşdirilməsinə öz mühüm təsirini göstərir, azad biznesə dəstəyin daha da yaxşılaşmasına əlverişli imkan yaradır.

Vergi qanunvericiliyinə dəyişikliklərin edilməsi ölkədə aparılan iqtisadi siyasətə uyğundur və bunun gələcəkdə də davam etdirilməsi mümkündür. Bu baxımdan, sahibkarlarla görüşlər mütəmadi xarakter daşıyacaq, onlarla müzakirələr davam etdiriləcək, fikir və təklifləri nəzərə alınacaq.

**- Şamil müəllim, müstəqil iqtisadi sistemin quruculuğunda hələ gənc olan dövlətimizin vergi qanunvericiliyinin hazırlanmasında və tətbiqində böyük fəaliyyətiniz və xidmətləriniz var. 60 yaşınızı da vergi sistemində aparılan köklü dəyişikliklərlə qarşılayırsınız. Sizi qəzetimizin kollektivi və oxucularımız adından təbrik edir, uğurlar diləyirik...**

- Təşəkkür edirəm. Vergi sistemində çalışmaq həm böyük məsuliyyət, həm də şərəflidir. Mən bu sahədə 1994-cü ildən fəaliyyət göstərirəm. Ölkəmizin vergi siyasətinin hazırlanmasına cəlb olunmağımsa 2000-ci ilə - Vergi Məcəlləsinin qəbul olunduğu vaxta təsadüf edir. Nazirliyin rəhbərliyinin cəlb etdiyi peşəkar komandanın birgə fəaliyyəti sayəsində mükəmməl və beynəlxalq tələblərə cavab verən təkmil vergi qanunvericiliyi hazırlandı. Ölkəmizin inkişaf dinamikasına və qarşıya çıxan iqtisadi reallıqlara uyğun olaraq qanunvericilik ötən illərdə daha da təkmilləşdirilib və bu prosesin davam edəcəyi şübhəsizdir. Uzun müddət vergi orqanında çalışan bir mütəxəssis kimi, vergi islahatlarının aparılmasında yaxından iştirak etməkdən qürur duyuram.

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Nağdsız əməliyyatlardan yayınan bələdiyyələr var

2017-ci ilin yanvar ayı ərzində Azərbaycanda fəaliyyət göstərən özəl və dövlət müəssisələri tərəfindən plastik kartlarla ümumilikdə 77 min 639 nağdsız əməliyyat həyata keçirilib. Əməliyyatlar nəticəsində 16 milyon 774 min 238 manat həcmində vəsait dövriyyədə olub. Mərkəzi Bankdan (MB) bildirildiyinə görə, qeyd olunan dövr ərzində ödəniş kartları ilə əməliyyatlar ümumilikdə 25 müəssisəni əhatə edib. Nağdsız əməliyyatlar sahəsində ən pis göstəriciyə malik olan qurumlar sırasında yerli özünüidarəetmə orqanları dayanır.

Vergi eksperti Ruslan Atakişiyevin sözlərinə görə, bu, bələdiyyələrin nağdsız ödənişlərə hələ də yaxşı əməl etmədiklərini, yerli vergilərin toplanmasında şəffaflığın lazımi səviyyədə qurulmadığını göstərir. «Bələdiyyələrin statusu haqqında» Qanunun 43-cü maddəsinə edilmiş əlavə və dəyişikliyə, eyni zamanda «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanunun 11.4-cü maddəsinə əsasən, bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbulu qadağan olunub. 2015-ci il yanvarın 1-dən qüvvəyə minmiş həmin qanunların tələblərinə görə, yerli vergi və ödənişlərin ödənilməsi nağdsız ödəmə vasitələri ilə həyata keçirilməlidir.

Hazırda ölkəmizdə yerli vergi və ödənişlərin nağdsız ödəmə vasitələri ilə aparılması üçün lazımi infrastruktur yaradılıb. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə rəhbəri Əvəz Quliyevin sözlərinə görə, bələdiyyə vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydaları təkmilləşdirilib. Bu sahədə uçotun, bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanaraq pilot layihənin həyata keçirildiyi bələdiyyələrdə quraşdırılıb. Bələdiyyə vergilərinin ödəyicilərinin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» yaradılıb. BVİS-in Hökumət Ödənişləri Portalına (HÖP) qoşulması isə bələdiyyələrin toplanmış vergi və rüsumların real vaxt rejimində büdcəyə ödənilməsini təmin edir. Bələdiyyə vergi və ödənişlərinin toplanılması prosesində tam şəffaflığın təmin olunması məqsədilə əməliyyat gününün sonunda qəbul edilmiş vəsaitlərin müvafiq hesablara çatdırılması üzrə portalda elektron üzləşmə aparılır və bu haqda BVİS-ə məlumat verilir. Ödəyicilər yaradılmış infrastruktura qoşulmuş bələdiyyə orqanları üzrə artıq ölkənin istənilən regionunda «Azərpoçt» MMC-nin və 36 bankın 2000-ə yaxın ödəniş məntəqəsində və özünəxidmət terminallarında nağd formada, həmçinin ödəniş kartlarından istifadə etməklə HÖP-ün internet resursları və «Elektron hökumət» portalı vasitəsilə ödənişlərini nağdsız formada həyata keçirə bilərlər. Bunun üçün qeyd olunan istənilən üsulla yerli (bələdiyyə) vergi və ödənişlərin aparılması məqsədilə bələdiyyə vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən (VÖEN) və ya şəxsiyyət vəsiqəsinin seriya və nömrəsindən istifadə edilə bilər.




Yaradılmış bütün bu imkanlara baxmayaraq, bəzi bələdiyyələr yenə də nağdsız əməliyyatlara maraq göstərmir. Milli Məclisin Regional siyasət komitəsinin üzvü Tahir Rzayev bildirib ki, bələdiyyələrin vergiləri nağd şəkildə toplaması bu sahədə ciddi problemlərin olduğundan xəbər verir. Yerli özünüidarəetmə orqanları ilk növbədə qanunlara əməl etməlidirlər.

**ELBRUS**

# Vergilər Nazirliyinin Tədris Mərkəzi beynəlxalq sertifikata layiq görülüb

Fevralın 20-də Vergilər Nazirliyinin Tədris Mərkəzinin ISO 9001:2015 beynəlxalq sertifikatına layiq görülməsi ilə bağlı Mərkəzin direktoru Əli Həsənov KİV nümayəndələri üçün brifinq keçirib. Diqqəti son illərdə vergi sahəsində aparılan islahatlara yönəldən direktor qeyd edib ki, vergi inzibatçılığının daim təkmilləşdirilməsi, işin günün tələbləri səviyyəsində qurulması vergi orqanlarında insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi zərurətini yaradıb: «Hazırda Vergilər Nazirliyinin bütün fəaliyyət sahələrini əhatə edən tədris proqramı vergi orqanı əməkdaşlarının fasiləsiz təhsil almasını təmin edir. Tədris Mərkəzində vergi əməkdaşları ilə yanaşı, bələdiyyələrə, vergi ödəyicilərinə, vergi dostlarına da müxtəlif istiqamətlər üzrə təlimlər keçilir. Bununla yanaşı, «Onlayn təlim» sistemi vasitəsilə qısamüddətli təlimlər təşkil edilir. Ötən il ümumilikdə 2639 nəfər üçün 62 onlayn təlim keçilib. Hazırda onlayn təlimlər ümumi təlimlərin 41,6%-ni təşkil edir».

Bildirilib ki, Tədris Mərkəzində aparılan təlimlərin keyfiyyətinin daha da artırılması, yerli və beynəlxalq əməkdaşlıq çərçivəsində əlaqələrin genişləndirilməsi, təlim siyasətinin daha da təkmilləşdirilməsi, Mərkəzin gələcəkdə regional akademiya statusuna nail olmaq məqsədilə ISO 9001:2015 beynəlxalq keyfiyyət standartının alınması zərurəti yaranıb. Bunun üçün ötən ilin iyunundan həmin standartın tətbiqinə başlanılıb və Almaniyanın «TUV Thuringen e.V» şirkətinin Azərbaycan ofisi tərəfindən keyfiyyətin auditi aparılıb: «Audit zamanı Mərkəzdə idarəetmənin, tədrisin keyfiyyətinin, resurslardan istifadənin, aparılan tədris siyasətinin, qurumun fəaliyyətini tənzimləyən normativ-hüquqi aktların, maddi-texniki təchizatın beynəlxalq standartlara uyğunluğu yoxlanılıb. Auditin nəticələrinə əsasən, Vergilər Nazirliyinin Tədris Mərkəzi ISO 9001:2015 beynəlxalq sertifikatına layiq görülüb və ötən ilin sonunda Türkiyənin İstanbul şəhərində bununla bağlı təqdimetmə mərasimi keçirilib».

Onun sözlərinə görə, bu sertifikatı respublikamızda mövcud olan xüsusi təhsil müəssisələri arasında ilk dəfə Vergilər Nazirliyinin Tədris Mərkəzi alıb.

KİV nümayəndələrinin suallarını cavablandıran Ə.Həsənov son illər ərzində görülmüş və qarşıdakı işlər barədə məlumat verərək qeyd edib ki, 5 il ərzində Mərkəz tədris prosesinin normativ bazasının təkmilləşdirilməsi, təlim prosesinin təşkili və qiymətləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirib: «2012-2016-cı illər ərzində təlimlərə ümumilikdə 10.442 nəfər cəlb edilib. 1592 nəfər ixtisasartırma təlimlərinə, 726 nəfər ilkin hazırlıq kurslarına, 6476 nəfər qısamüddətli təlimlərə, 1265 nəfər sertifikasiya təlimlərinə, 383 nəfər isə innovasiya təlimlərinə cəlb edilib. Vergi orqanı əməkdaşları üçün tədrisin kifayətlilik göstəricisi 2012-ci ildə 3,7-dən 2016-cı ilin sonuna 10,5-ə yüksəlmişdir. Təkcə ötən il ərzində 4660 nəfər müxtəlif təlimlərdə iştirak edib.

Vergi orqanı əməkdaşları üçün tədrisin kifayətlilik göstəricisi 2012-ci ildəki 3,7-dən 2016-cı ilin sonuna 10,5-ə yüksəlib

Gənc nəslin, təhsil müəssisələrinin şagird və tələbələrinin vergilər haqqında bilik və anlayışlarının artırılması, onlarda vergi mədəniyyətinin formalaşdırılması və vergilərə aid maarifləndirmənin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə ümumtəhsil məktəblərində və orta ixtisas peşə liseylərində 56 metodiki kabinet və vergi tədris otağı təşkil edilib və hər il bunların monitorinqi keçirilir. Mərkəzdə «Vergi muzeyi» fəaliyyət göstərir. Bu illər ərzində Tədris Mərkəzində bir sıra yerli və beynəlxalq elmi-praktiki konfranslar keçirilib. Bir çox bələdiyyələrdə Vergilər Nazirliyi tərəfindən yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli vergi və ödənişlərin elektron uçotunu nəzərdə tutan «Bələdiyyələrin Vergi İnformasiya Sistemi» proqramının tətbiq edilməsi ilə əlaqədar təlimlərə 119 nəfər bələdiyyə əməkdaşı cəlb olunub».

Media nümayəndələrinin nəzərinə çatdırılıb ki, vergilər nazirinin əmri ilə «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da qeyd olunan əsas vəzifələrdən biri də Tədris Mərkəzinin bazasında Regional Tədris Akademiyasının yaradılmasıdır.

**AYTƏN**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Əlavə dəyər vergisi

***Xarici internet saytından anti-virus proqramı yükləyən zaman bank tərəfindən alıcının kart hesabından ƏDV tutulmalıdırmı?***

Azərbaycan Respublikasının «Elektron ticarət haqqında» 10 may 2005-ci il tarixli 908-IIQ nömrəli Qanununun 1.0.1-ci maddəsinə əsasən, elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alğı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən internet şəbəkəsi vasitəsilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyətdir.

Vergi Məcəlləsinin 169.3-cü maddəsinin müddəalarına əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən qeyri-rezidentdən elektron ticarət qaydasında işlərin və xidmətlərin alınmasına görə aparılan ödənişlərdən ödəməni həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən alıcının vəsaiti hesabına ƏDV hesablanmalı və ödənilməlidir.

**Göstərilənlərə əsasən:**

İnternet şəbəkəsi vasitəsilə proqram təminatlarının (o cümlədən anti-virus proqramlarının) yüklənməsinə görə qeyri-rezidentə aparılan ödənişlərdən ödəməni həyata keçirən yerli bank tərəfindən alıcının vəsaiti hesabına 18 faiz dərəcə ilə ƏDV tutularaq dövlət büdcəsinə ödənilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən «Azərbaycan İpoteka Fondu» ASC-nin hər birinin nominal dəyəri **1000** manat olan **20.000** ədəd faizli ipoteka istiqrazları dövlət qeydiyyatına alınıb.
- Azərbaycanda özəlləşdirilmiş müəssisələr üzrə istehsalın həcmi **1,5 milyard** manat artıb.
- Bu ilin yanvar ayında ölkəmizdə kompüter və elektron məhsullarının, elektrik avadanlıqlarının istehsalı sahələrində **14,2 milyon** manatlıq məhsul istehsal olunub.
- Dövlət Neft Fondunun aktivlərinin **80** faizini istiqrazlar və pul bazarı alətləri təşkil edir.
- Bu il yanvarın 1-nə Dövlət Neft Fondunun investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatı belədir: **43,1%** Avropa, **26,3%** Asiya-Sakit Okean, **23,5%** Şimali Amerika, **3,8%** Avstraliya-Yeni Zelandiya, **0,1%** Yaxın Şərq və **0,1%** Cənubi Amerika.
- Azərbaycan təbii qazının Türkiyəyə və buradan Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsinə Avropa İnvestisiya Bankı, eləcə də Avropa Yenidənqurma və İnkişaf Bankından təxminən **1,5 milyard** dollarlıq vəsait cəlb olunacaq.
- Bu ilin yanvar ayında Azərbaycana avtomobil idxalı ötən ilin müvafiq dövrü ilə müqayisədə **6,82%** artıb.
- Yanvar ayında ölkənin neft sektoruna **751,5 milyon** manatlıq vəsait yönəldilib.
- Mədənçıxarma sənayesində işləyənlərin orta aylıq əməkhaqqı **30%** artıb.

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinir.

Vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı qaydada silinəcəklər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar ayı ərzində həmin maliyyə sanksiyalarının 30 faizi ödənilərsə, qalan 70 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

**Maliyyə sanksiyasının məbləğini 143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Müasir mexanizmlərin tətbiqi vergi ödəyicilərinin işini asanlaşdırır

Vergi öhdəliklərinin yerinə yetirilməsi prosedurlarının təkmilləşdirilməsi Vergilər Nazirliyinin daim diqqət mərkəzindədir. Xüsusi diqqət tələb edən sahələrdən biri də vergi borclarının alınması ilə bağlı öhdəliklərdir və bu sahənin təkmilləşdirilməsi üçün ilk növbədə vergi borcunun yaranma səbəbləri araşdırılır, borcun ödənilməsi ilə bağlı vergi ödəyicisinin imkanları dəyərləndirilir və borcun yönəldilməsi üçün mənbələr dəqiq müəyyən edilir.

Borclu vergi ödəyiciləri barədə nazirlikdə məlumat bazası yaradılıb və həmin vergi ödəyiciləri müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə bölüşdürülüb. Məlumat bazasının yaradılması borcun ödənilməsi baxımından daha tez nəticə verə biləcək metodların seçilməsinə, borclu vergi ödəyicilərinin müvafiq risk qruplarına ayrılması isə həmin ödəyicilər üzrə görülmüş və görüləcək işlərə nəzarətin daha effektiv şəkildə həyata keçirilməsinə kömək göstərir. Bundan başqa, ödəyicilərin «Vergi partnyorluğu sazişi»nin bağlanılması üçün vergi orqanlarına müraciət etmək hüququ təsbit olunmuşdur. Vergi risklərinin minimallaşdırılması məqsədilə könüllü şəkildə bağlanılmış niyyət razılaşması olan bu saziş vergi ödəyicilərinə bir sıra üstünlüklər verir. Partnyorluq sazişi bağlamaq istəyən vergi ödəyiciləri öncə büdcə qarşısında bütün vergi öhdəliklərini yerinə yetirməlidirlər.

Hazırda vergi borcları barədə məlumatların vergi ödəyicilərinə çatdırılması üçün geniş məlumatlandırma vasitələrindən istifadə edilir. Bunun üçün vergi ödəyicilərinə bildiriş və xəbərdarlıqlarla yanaşı, onların mobil telefon nömrələrinə borc məbləğləri barədə qısa mesajlar göndərilir və bu, borcların operativ qaydada alınmasına kömək göstərir.

Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərdə vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı bir sıra yeniliklər təsbit olunub. Dəyişikliyə görə, vergi borclarının dövlət büdcəsinə alınmasının tam həcmdə və operativ təmin edilməsi məqsədilə vergi ödəyicisinin siyahıya alınmış əmlakının icra məmurunun sifarişinə əsasən elektron hərrac vasitəsilə satılması mümkündür. Dəyişikliklərdə vergi ödəyicisinin siyahıya alınmış əmlakının satışından əldə olunan vəsait barədə, habelə siyahıya alınmış əmlakların satılması üçün icra məmurları tərəfindən edilmiş sifarişlər barədə rüblük məlumatların vergi orqanlarına elektron şəkildə təqdim edilməsi də nəzərdə tutulub. Bundan əlavə, Vergi Məcəlləsinə hərraca dair elanların verilməsi müddətinin azaldılması ilə bağlı müddəalar da daxil edilib. Bu dəyişikliklər müasir mexanizmlər tətbiq olunmaqla qısa müddət ərzində vergi borclarının dövlət büdcəsinə alınmasını təmin edəcəkdir.

Qanunvericilik aktlarına edilmiş son əlavə və dəyişikliklərdə vergi borcları ilə bağlı stimullaşdırıcı müddəalar da öz əksini tapmışdır. Belə ki, Cinayət Məcəlləsinin 213-cü maddəsinin qeyd hissəsinin tələblərinə əsasən, cinayət tərkibi yaratmış vergi borcu ilə əlaqədar əməl ilk dəfə törədilərsə və cinayət nəticəsində vurulmuş ziyan tamamilə ödənilərsə, vergi ödəyicisi cinayət məsuliyyətindən azad oluna bilər. Bundan başqa, Cinayət Məcəlləsinə edilən əlavə və dəyişikliklərə görə, Azərbaycanda qanunsuz sahibkarlıqla məşğul olan şəxslər cərimə ödəməklə məsuliyyətdən azad olunacaqlar. Məcəllənin 192-ci (qanunsuz sahibkarlıq) maddəsinə əlavə edilən qeyd bölməsində göstərilir ki, 192.1-ci maddədə nəzərdə tutulmuş



əməli ilk dəfə törədən şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə cinayət məsuliyyətindən azad olunur. Xatırladaq ki, dəyişiklikdən əvvəl qanunsuz sahibkarlıqla məşğul olan şəxs cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya 6 ayadək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı.

Cinayət Məcəlləsinin qəbulundan keçən 16 il ərzində Azərbaycan iqtisadiyyatının inkişafı və baş verən digər iqtisadi proseslər nəticəsində dövriyyədə olan məhsulların, xidmətlərin dəyəri və insanların gəlirləri bir neçə dəfə artıb. Həm bu amil, həm də Azərbaycan qanunçuluğuna xas olan humanist prinsiplər Cinayət Məcəlləsində müəyyən dəyişikliklərin edilməsini zəruriləşdirirdi. Bütün bunlar nəzərə alınmaqla, Cinayət Məcəlləsində məsuliyyət müəyyən edən məbləğlər artırılıb. Əvvəllər vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkarlar cinayət məsuliyyətinə cəlb edilirdi. Yeni qanun qüvvəyə mindikdən sonra isə cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq 20.000 manata qaldırılıb. Yəni 20.000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəklər. Rəqəmlərə gəlincə, iqtisadi fəaliyyət sahəsinə aid cinayətlər fəslində cinayət məsuliyyəti yaradan hədd 1000 manat müəyyən edilirdi. Dəyişikliklə həmin məbləğ 20 dəfə artırılaraq 20.000 manat olub. İlk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad edilirlər. Bu dəyişiklik nəticəsində ümumilikdə 24 maddədə sahibkarların məsuliyyəti yüngülləşdirilib.

> Vergi ödəyiciləri yaddan çıxarmamalıdırlar ki, qanunun daha da humanistləşdirilməsi, cinayət məsuliyyəti yaradan hədlərin artırılması, prosedurların sadələşdirilməsi heç kəsin qanunu pozmasına əsas vermir, əksinə, bu təkmilləşdirmələr qanuna daha ciddi riayət edilməsinə stimul yaradır.

**Rəşad SADIQOV**

# Beynəlxalq vergi və maliyyə məlumatlarının mübadiləsi

Azərbaycan Respublikası Prezidentinin imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli Sərəncamda digər istiqamətlərlə yanaşı, ölkənin hüdudlarından kənarda əldə olunmuş gəlirlərin vergiyə cəlb olunmasında şəffaflığı təmin etmək və səmərəli vergi nəzarəti həyata keçirmək üçün dövlətlər arasında maliyyə məlumatlarının avtomatik mübadiləsi məqsədilə hökumətlərarası müqavilələrin bağlanması nəzərdə tutulmuşdur. Bu cür müqavilələrin bağlanması ilə avtomatik məlumat mübadiləsinin əhatə dairəsi gələcəkdə daha da genişləndiriləcəkdir.

Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentindən bildirilib ki, vergidən yayınma hallarının qarşısının alınması məqsədilə beynəlxalq vergi əməkdaşlığının əsas aspektlərindən biri məlumat mübadiləsidir. Buraya müxtəlif formalarda həyata keçirilməklə sorğu əsasında, spontan və avtomatik məlumat mübadiləsi daxildir.

Avtomatik məlumat mübadiləsinin mahiyyəti vergi ödəyicisinin müxtəlif kateqoriyalı gəliri (məsələn, dividendlər, faizlər, royalti, maaşlar, pensiyalar və s.) haqqında ətraflı (kütləvi) məlumatın mənbə dövlətindən rezidentlik dövlətinə sistematik və dövri şəkildə ötürülməsindən ibarətdir.

Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli Qanunu ilə «Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə» Saziş təsdiq edilmişdir. Saziş iki dövlət arasında hesabat verilməli hesablar barədə məlumatların avtomatik şəkildə mübadiləsini nəzərdə tutur.

Sazişin tələblərindən irəli gələrək və gələcəkdə bu tipli beynəlxalq müqavilələrin imzalanmasının mümkünlüyünü nəzərə alaraq Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilmiş və həmin dəyişikliklər Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli Qanunu ilə təsdiq edilmişdir».

Dəyişikliyə əsasən, vergi və maliyyə məlumatlarının mübadiləsi üzrə beynəlxalq sazişlərdən irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə maliyyə institutlarının, o cümlədən bankların hüquq və vəzifələrini və onların bu məsələlərlə bağlı məsuliyyətini nəzərdə tutan maddələr Vergi Məcəlləsinə daxil edilmişdir.

> Vergi Məcəlləsinin 60.3.2-ci maddəsinə əsasən banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarına həmin Məcəllənin 16.1.11-4-cü maddəsində göstərilən elektron hesabatın müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməməsinə görə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir

Maliyyə institutu dedikdə Vergi Məcəlləsinin məqsədləri üçün müvafiq fəaliyyətlərdən ən azı birini həyata keçirən vergi ödəyicisi nəzərdə tutulur ki, bu fəaliyyətlərə aiddir:

- bank fəaliyyəti;
- həyatın yığım sığortası və (və ya) annuitet sığortası fəaliyyəti;
- depozitar fəaliyyəti;
- qiymətli kağızların, törəmə maliyyə alətlərinin, xarici valyutaların məzənnə, faiz dərəcəsi və indeks alətləri, qiymətli kağızlarla ticarət və ya əmtəə üzrə fyuçerslərin müştəri üçün və ya müştərinin adından aparılan ticarət fəaliyyəti;
- investorların portfellərinin idarə edilməsi fəaliyyəti.

Maliyyə institutlarında vergi monitorinqi maliyyə institutları tərəfindən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsi işinə nəzarət tədbirlərini nəzərdə tutur: «Bu nəzarət tədbirlərinin təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsinin tələbələrinə uyğun olaraq Vergilər Nazirliyi tərəfindən «Maliyyə institutları tərəfindən məlumat verilməli hesablar barədə Hesabat» forması və həmin hesabatın tərtib edilməsi Qaydası hazırlanmış və Vergilər Nazirliyi Kollegiyasının 12 yanvar 2017-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Bundan əlavə, «Maliyyə institutlarında vergi monitorinqinin aparılması Qaydaları» hazırlanmış və vergilər nazirinin 19 yanvar 2017-ci il tarixli əmri ilə təsdiq edilmişdir. Qaydalar vergi monitorinqini keçirən yoxlayıcıların vəzifə və hüquqları, vergi monitorinqi və onun təşkili prinsipləri, vergi monitorinqinin və səyyar vergi yoxlamasının tərkibində vergi monitorinqinin keçirilməsi və s. məsələləri tənzimləyir.

«Maliyyə institutlarında vergi monitorinqinin aparılması Qaydaları»na uyğun olaraq maliyyə institutlarında vergi monitorinqinin keçirilməsi ilə bağlı, habelə vergi monitorinqinin keçirilməsi prosesində qəbul edilən bütün qərarları, sənədlərin, məlumatların tələb edilməsi ilə bağlı tələbnamələri, bildirişləri və vergi monitorinqinin materiallarına baxılmasının nəticələri üzrə Vergilər Nazirliyi adından çıxarılan qərarları imzalamaq səlahiyyəti vergilər nazirinin 7 fevral 2017-ci il tarixli əmri ilə Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoruna verilmişdir.

Bununla yanaşı, Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoruna maliyyə institutlarına Vergi Məcəlləsinin tələbləri çərçivəsində maliyyə sanksiyasının tətbiqi ilə əlaqədar Vergilər Nazirliyi adından çıxarılan qərarları imzalamaq səlahiyyəti də verilmişdir».

**Fəxriyyə İKRAMQIZI**

# Alternativ gəlir mənbələrinin tapılması başlıca məqsədlərdəndir

**2017-ci ildən qüvvəyə minmiş əlavə və dəyişikliklər vergi ödəyicilərinə güzəşt və azadolmaların verilməsini, vergi ödəyicisinin vergi tutulan gəlirinin (mənfəətinin) müəyyən olunmasını, qeyri-rezidentlərin daimi nümayəndəlik yaratmadan Azərbaycan mənbəyindən əldə olunan gəlirlərinin vergiyə cəlb olunmasının tənzimlənməsi kimi istiqamətləri əhatə edir.**

Vergilər Nazirliyinin Hüquq departamentinin Hüquqi təminat şöbəsinin rəhbəri Günay Ağayevanın sözlərinə görə, vergi ödəyicilərinə güzəşt və azadolmaların verilməsi ilə bağlı Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə edilən dəyişikliyə əsasən, yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialında fiziki şəxsin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən buraxılan istiqraz və səhmlər üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin gəlir vergisindən azadolma müddəti 3 ildən 7 ilədək artırılmışdır.

Vergi Məcəlləsinin 106.1.5-ci maddəsinə edilən dəyişiklik isə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxsin, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin gəlirlərinin mənfəət vergisindən azad olunmasını nəzərdə tutur. Vergi Məcəlləsinin 114.3.2-ci maddəsinə edilən dəyişiklik və Məcəlləyə əlavə edilmiş yeni 114.3.2-1-ci və 114.10-cu maddələr yüksək texnologiyalar məhsulu kimi təsnifləşdirilən hesablama texnikasının (məsələn, kompüter, planşet və s.) əvvəl olduğu kimi 25% dərəcə ilə, digər maşın və avadanlıqların isə 25% deyil, 20% dərəcə ilə amortizasiya olunmasını təsbit edir və vergi ödəyicisinin vergi tutulan gəlirinin (mənfəətinin) müəyyən olunması məqsədini daşıyır. Həmçinin nəzərdə tutulur ki, dövlət müəssisələri dövlət büdcəsinin investisiyaları hesabına aldıqları aktivlərin illik hesablanmış amortizasiya məbləğini tam həcmdə deyil, müvafiq dərəcələrlə hesablanan amortizasiyanın yalnız 40%-ni gəlirdən çıxa biləcəklər.

Vergi Məcəlləsinə əlavə edilmiş yeni - 109.8-ci maddəyə görə, nağd hesablaşmaları rəsmiləşdirən nəzarət-kassa aparatı çeki və ya qəbzlərin malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmadığı vurğulanmışdır. Həmin sənədlər gəlirdən çıxılan xərclərin təsdiqi üçün əsas vermir. Eyni zamanda, Vergi Məcəlləsinin yeni - 130.1-1-ci maddəsi iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılmasının xüsusi qaydalarının olacağı göstərilməklə, bu qaydaların Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunmasını təsbit edir. Qeyri-rezidentlərin daimi nümayəndəlik yaratmadan Azərbaycan mənbəyindən əldə olunan gəlirlərinin vergiyə cəlb olunmasının tənzimlənməsi ilə bağlı Vergi Məcəlləsinin 125.1.8-ci maddəsinə edilən dəyişiklikdə göstərilmişdir ki, keçirilən lotereya, digər yarış və müsabiqələrdə iştirak edən qeyri-rezidentin gəlir əldə edərkən, ona ödəniləcək uduş (mükafat) məbləğindən iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılaraq yaranan fərqdən ödəmə mənbəyində 10% dərəcə ilə vergi tutulur. Vergi Məcəlləsinin yeni 125.1-1-ci maddəsi qeyri-rezident şəxslərə məxsus elektron «pul kisəsi»ndə hər hansı məqsədlə pul köçürən Azərbaycan Respublikasının rezidentindən köçürməni yerinə yetirən yerli banka, xarici bankın Azərbaycan Respublikasındakı filialına və ya milli operator olan «Azərpoçt» MMC-yə ödəmə mənbəyində köçürülən məbləğin 10%-i miqdarında vergi tutmağı həvalə edir. Vergi Məcəlləsinin yeni 13.2.16.14-1-ci, 125.1.9-cu və 128.3-cü maddələrinin müddəaları siyahısı hər il Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunan güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə birbaşa və ya dolayısı ilə ödənişlər edən rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəliklərinin bu ödənişlərdən ödəmə mənbəyində 10% dərəcə ilə vergini tutmalı olduqlarını göstərir.

G.Ağayeva qeyd etmişdir ki, Vergi Məcəlləsinin yeni - 17.6-cı və 149.1.3-1-ci maddələri vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlərin gəlirlərinin Azərbaycan Respublikasında vergi agenti vasitəsilə bəyannetmə prosedurunu tənzimləyir. Vergi agenti təyin olunan şəxs 30 gün ərzində Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayış təqdim etməlidir. Bildirilmişdir ki, Vergi Məcəlləsinin 102.1.13-cü maddəsinin ləğvi, 150.1.10-cu maddəsində edilmiş dəyişiklik və yeni əlavə edilmiş 150.1.11-ci maddə nəticəsində Maliyyə Bazarlarına Nəzarət Palatasında qeydiyyatdan keçmiş lotereyalardan və dövlət daxili uduşlu istiqrazlardan əldə olunan uduşlar vergiyə cəlb ediləcəkdir. Eyni zamanda, keçirilən lotereya, digər yarışlar və müsabiqədən pul şəklində əldə olunan uduşun (mükafatın) ödəmə mənbəyində 10% dərəcə ilə vergiyə cəlb olunması təsbit olunur. Ödəməni edən şəxs rezident hüquqi şəxs və fərdi sahibkar olduqda vergi həmin şəxs tərəfindən; ödəməni edən daimi nümayəndəliyi olmayan qeyri-rezident olduqda isə uduş (mükafat) əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru olan «Azərpoçt» MMC tərəfindən tutulmalıdır. Ödəmə mənbəyində vergini tutan şəxs hesablanmış vergi məbləğini hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq bəyan etməli və büdcəyə köçürməlidir. Vergi Məcəlləsinin yeni 150.1.9-cu maddəsinə edilən dəyişiklik torpaqların təqdim olunmasından gəlir əldə edən şəxsin əvvəlki kimi gəlir (mənfəət) vergisini deyil, satılan torpağın sahəsinə uyğun olaraq sadələşdirilmiş vergi ödəməli olduğunu bildirir. Vergi Məcəlləsinin yeni 150.1.12-ci maddəsi hesablaşma hesabında olan pul vəsaitlərini vergi ödəyicisi olan hüquqi şəxslərə və fərdi sahibkarlara nağd şəkildə verən yerli bank, xarici bankın respublikadakı filialı və ya poçt rabitəsinin milli operatoru olan «Azərpoçt» MMC tərəfindən ödənilən məbləğdən 1% dərəcəsi ilə sadələşdirilmiş vergini hesablamağı, vəsaiti alan şəxsin bank hesabından tutmağı və bəyan etməyi həvalə edir.

> Böhran dövründə vergi ödəyicilərinə müəyyən azadolma və güzəştlərin verilməsi sahibkarlıq mühitinin yaxşılaşması, nisbətən sabitləşməsi, işsizliklə bağlı problemlərin yaşanmaması, bir sözlə, böhranın neqativ təsirlərinin bir hissəsinin kompensasiya edilməsi baxımından təqdir olunmalıdır

İqtisadi Tədqiqatlar İnstitutunun rəhbəri Qalib Bayramov qanundakı dəyişikliklərlə bağlı bildirmişdir ki, böhran dövründə vergi ödəyicilərinə müəyyən azadolma və güzəştlərin verilməsi sahibkarlıq mühitinin yaxşılaşması, nisbətən sabitləşməsi, işsizliklə bağlı problemlərin yaşanmaması, bir sözlə, böhranın neqativ təsirlərinin bir hissəsinin kompensasiya edilməsi baxımından təqdir olunmalıdır. Bu, həm mənfəət vergisinə, həm də ƏDV-yə aiddir: «Digər tərəfdən, neft gəlirlərinin kəskin azaldığı şəraitdə kiçilən büdcənin iqtisadiyyatın tələblərinə cavab verə bilməməsi alternativ gəlir mənbələrinin axtarılmasını zəruri edir. Bu baxımdan, ilk növbədə vergi və gömrük gəlirlərinin artırılmasına vəziyyətdən çıxış yolu kimi baxıla bilər. İndiyə qədər bəzi vergi ödəyicilərinə münasibətdə dövlətin loyal davranışı artıq onlarda vergi mədəniyyətinin formalaşması tədbirləri ilə əvəz olunmalıdır. Şübhəsiz ki, bu proses tədricən aparılmalı, şok effekti yaratmamalıdır. Nəzarət-kassa aparatı çekinin və ya qəbzlərin gəlirdən çıxılan xərclərin təsdiqi kimi qəbul olunmaması Azərbaycan mühitində hamımızın şahid olduğu pis bir ənənənin qarşısını almaqla mənfəət (gəlir) vergisinin artmasını təşviq edəcək. Ancaq bu addım «nəzarət-kassa aparatlarının heç bir rolu qalmadı» kimi əsassız fikirlərə də yol açmamalıdır. Çünki sadələşdirilmiş vergi ödəyiciləri olan ictimai iaşə və ticarət subyektləri üçün dövriyyənin müəyyən olunması və istehlakçıların hüquqlarının qorunması baxımından kassa çekləri öz əhəmiyyətini saxlamaqdadır».

İqtisadçı ekspert onu da qeyd etmişdir ki, mühüm dəyişiklik kimi güzəştli vergi tutulan ölkələrdə (offşorlarda) qeydiyyatdan keçmiş şəxslərə Azərbaycan Respublikasında fəaliyyət göstərən rezident və qeyri-rezidentlər tərəfindən edilən bütün ödənişlərdən ödəmə mənbəyində vergi tutulması ölkəmiz üçün çox aktual bir problemin həllinə imkan verəcək, vergidən yayınmanın qarşısını almaqla yanaşı, ölkədən valyuta axınını məhdudlaşdıracaq.

**Fəxriyyə İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

İtaliyanın iqtisadiyyat naziri Karlo Kalendanın rəhbərlik etdiyi biznes nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində fevralın 23-də Bakıda Azərbaycan-İtaliya biznes forumu keçiriləcək.

Martın 2-də Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Məhəmməd Əl Qorçi Bakıya səfəri çərçivəsində kommersiya banklarının rəhbərləri ilə görüşəcək.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç fevralın 23-də Bakıda təşkil ediləcək «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının üçüncü iclasında iştirak edəcək.

Fevralın 22-24-də Azərbaycan biznes nümayəndə heyətinin İran İslam Respublikasının Ərdəbil və Urmiya şəhərlərinə işgüzar səfəri planlaşdırılır.

Azərbaycan 2017-ci ildə Rusiya, ABŞ, Qətər, Qazaxıstan və Çinə 5 ixrac missiyası təşkil etməyi planlaşdırır.

# Sahibkarlara 190 milyon manat güzəştli kredit verilib

***2017-ci ildə sahibkarlara geri qaytarılan vəsaitlər hesabına 150 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur***

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu ötən illərdə olduğu kimi, 2017-ci ildə də sahibkarların maarifləndirilməsi, sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi tədbirlərini davam etdirir. Fonddan verilən məlumata görə, 2017-ci ilin ilk işgüzar forumu fevralın 16-da Şəmkir rayonunda keçirilib. 200-ə yaxın sahibkarın iştirakı ilə keçirilən tədbir çərçivəsində rayonun iqtisadi potensialının reallaşdırılması istiqamətində sahibkarlarla müzakirələr aparılıb. Sahibkarlara fond tərəfindən Şəmkir rayonunun iqtisadi potensialına uyğun olaraq aqroparkın, kartof və soğan saxlama anbarının, quru meyvə istehsalının, kiçik və orta həcmli istixana, intensiv üzümçülük və kartofçuluq təsərrüfatlarının və dəyirmanın yaradılması üzrə hazırlanmış nümunəvi investisiya layihələri və metodiki materiallar təqdim olunub. Forum zamanı müvəkkil kredit təşkilatları vasitəsilə Şəmkir və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarlıq subyeklərinə 270 min manat güzəştli kredit verilib. Kreditlər əsasən heyvandarlıq, üzümçülük, bağçılıq, tərəvəzçilik sahələrinin inkişafına yönəldiləcək.




Fondun fəaliyyəti və ötən il verilmiş güzəştli kreditlər hesabına həyata keçirilən layihələr barədə məlumat verən Fondunun icraçı direktoru Şirzad Abdullayevin sözlərinə görə, 2016-cı ildə sahibkarlıq subyektlərinin 2500-ə yaxın investisiya layihəsinin maliyyələşdirilməsinə 190 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 8100-dən çox yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 74%-i respublikanın regionlarının, 26%-i isə Bakı şəhəri və onun qəsəbələrinin payına düşür və kreditlərin 82,3%-i aqrar sektorun, 17,7%-i sənaye və digər sahələrin inkişafına yönəldilib.

Qeyd edilib ki, 2017-ci ildə sahibkarlara geri qaytarılan vəsaitlər hesabına 150 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulur. Fond bu il qeyri-neft məhsullarının istehsalının artırılması, iqtisadiyyatın real sektorunda investisiya layihələrinin maliyyələşdirilməsi, logistik mərkəzlərin, ixtisaslaşdırılmış «yaşıl market»lərin, aqroparkların, cins iribuynuzlu heyvandarlıq və istixana komplekslərinin, iri fermer, intensiv bağçılıq və quşçuluq təsərrüfatlarının yaradılması, ət kəsimi və emalı, qarışıq yem və çörək istehsalı, meyvə-tərəvəz məhsullarının emalı və digər sənaye müəssisələrinin yaradılması üzrə investisiya layihələrinin maliyyələşdirilməsi, eləcə də kiçik sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində fəaliyyətini davam etdirəcək.

Forum çərçivəsində Şəmkir rayonunda dövlətin güzəştli krediti ayrılan «Şəmkir Aqropark»da aparılan işlərə baxış keçirilib. Hazırda «Şəmkir Aqropark»da 1-ci mərhələ üzrə işlər davam etdirilir. Xaçmaz rayonunda yerləşən «Yalama Aqropark»da isə 1-ci mərhələ üzrə işlər başa çatdırılıb. Digər regionlarda da aqroparklar yaradılır. Ümumilikdə, 6 aqroparkın yaradılmasına 48 milyon manat güzəştli kredit verilib.

**AYTƏN**

# Nağdsız hesablaşmalar istehlakçıların hüquqlarının qorunmasına xidmət edir

«Nağdsız hesablaşmalar haqqında» Qanun ölkəmizdə nağdsız əməliyyatların həcminin artması, bankların maliyyə vəziyyətinin yaxşılaşması, likvidliyinin təmin edilməsi, pul dövriyyəsinin tənzimlənməsi və büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın artırılması məqsədi daşıyır və bu qanunun tələblərindən irəli gələrək Vergi Məcəlləsində də müvafiq dəyişikliklər edilmişdir. Qanuna əsasən, nağdsız hesablaşma dedikdə bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri ilə (mobil telefon aparatları, kompüter və digər avadanlıq), ödəniş terminalları ilə, birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar nəzərdə tutulur.

«Nağdsız hesablaşmalar haqqında» Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. Bu qanunun tələblərinin pozulmasına görə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə aparılan əməliyyatların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilmişdir.

«İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna uyğun olaraq nağdsız ödənişlərin aparılması üçün obyektlərdə POS-terminalların olması vacib şərtlərdəndir. Bundan əlavə, «Elektron ticarət haqqında» Qanun tələb edir ki, istehlakçılara elektron ödəniş etmək imkanı yaradılmalıdır.



> Nağdsız ödənişlər sisteminin işləkliyinin təmin edilməsi, hər iki tərəfi nağdsız ödənişlərə həvəsləndirmək üçün əlavə stimullaşdırıcı tədbirlərin də həyata keçirilməsi vacibdir

Ölkəmizdə nağdsız ödənişlərlə bağlı həm hüquqi baza, həm də müvafiq infrastruktur yaradılsa da, əldə edilən nəticələr hələ qənaətbəxş səviyyədə deyil. «Azad istehlakçılar» İctimai Birliyinin sədri Eyyub Hüseynovun fikrincə, qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf vergi nəzarətinin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına səbəb olacaq: «Artıq qanunda hansı vergi ödəyicilərinin nəzarət-kassa aparatı çeki təqdim etmələri, kimlərin nağdsız hesablaşmalar aparmaları dəqiq müəyyənləşdirilib. Bu, istehlakçıların hüquqlarının qorunması baxımından çox əhəmiyyətlidir. Çünki kassa çeki istehlakçıların hüquqlarının qorunmasında əsas sənədlərdən biri hesab olunur.

Ancaq bəzi ticarət və xidmət obyektlərində istehlakçılara kassa çekləri təqdim olunmur, nağdsız alış-veriş üçün şərait yaradılmır. Bir çox marketlərdə kartla alış-veriş etmək mümkün olmur. Kafelərin əksəriyyətində POS-terminal yoxdur. Bu mövzuda çoxlu şikayətlər alırıq. Həmin şikayətləri Vergilər Nazirliyinə müvafiq qurumlarına çatdırırıq və nazirliyin müdaxiləsindən sonra problemlərin böyük qismi öz həllini tapır. Bu əməkdaşlıq istehlakçıların hüquqlarının qorunması baxımından çox təqdirəlayiqdir. Hesab edirəm ki, nağdsız ödənişlər sisteminin işləkliyinin təmin edilməsi, hər iki tərəfi nağdsız ödənişlərə həvəsləndirmək üçün əlavə stimullaşdırıcı tədbirlərin də həyata keçirilməsi vacibdir».

**Rəşad SADIQOV**

# Özəlləşdirmədə yeni imkanlar və perspektivlər nəzərdən keçirilib

**_Dövlət əmlakının özəlləşdirilməsi nəticəsində sahibkarlıq sektorunda 300 mindən artıq iş yeri yaradılıb, 250 mindən çox şəxs səhm sahibi olub, ümumilikdə 1,2 milyondan artıq ölkə vətəndaşı bu və ya digər formada özəlləşdirmədən faydalanıb._**

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən «Özəlləşdirmə sahəsinə investisiyalar: yeni imkanlar və çağırışlar» mövzusunda işgüzar forum özəlləşdirmə prosesini əhatə edən qısa filmin nümayişi ilə başlanıb. Filmdə dövlət əmlakının özəlləşdirilməsi prosesinə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə start verilməsi, bu günədək əldə olunmuş nailiyyətlər, özəlləşdirildikdən sonra uğurla fəaliyyət göstərən çoxsaylı istehsal müəssisələrindən videogörüntülər, dövlət başçısı İlham Əliyevin özəlləşdirmənin sürətləndirilməsi ilə bağlı son dövrlərdə imzaladığı fərman və sərəncamların icrası ilə əlaqədar görülən işləri əhatə edən kadrlar, əhalinin hərrac və müsabiqələrdə sərbəst iştirakını əks etdirən materiallar, sahibkarlar üçün maraq kəsb edən digər məlumatlar yer alıb.

Forumun əsas məqsədi ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərini dövlət əmlakının özəlləşdirilməsi prosesinin gedişi, bu sahədəki yeni yanaşmalar, innovasiyaların tətbiqi, özəlləşdirməyə yeni açılmış müəssisə və sahələr, şəffaflığın artırılması ilə bağlı görülən təbliğat və maarifləndirmə tədbirləri barədə məlumatlandırmaqdır.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov qeyd edib ki, ABŞ, Böyük Britaniya, Fransa, İsveçrə, Türkiyə, Almaniya, Rusiya, Çin, Finlandiya və digər dövlətlərin investorları özəlləşdirmədə iştirak ediblər.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən iqtisadi islahatlar nəticəsində dövlət mülkiyyətinin özəlləşdirilməsi və idarəçiliyi sahəsində əldə olunan nailiyyətlər ilbəil artmaqdadır. Bunun təsdiqi olaraq, dövlət əmlakının özəlləşdirilməsi prosesinin sürətləndirilməsi barədə ölkə başçısının 19 iyul 2016-cı il tarixli Fərmanında bir sıra mühüm istiqamət və tapşırıqlar öz əksini tapıb.

Həmin tapşırıqlara uyğun olaraq, dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısı müəyyənləşdirilib, onların tabeliyindəki qeyri-profil, habelə həmin siyahıya daxil olmayan dövlət müəssisə və obyektlər özəlləşdirməyə açılıb. Hazırda komitə tərəfindən həmin müəssisələrin özəlləşdirməyə hazırlanması istiqamətində tədbirlərə başlanılıb və yaxın aylarda onların satışa çıxarılması barədə elanlar kütləvi informasiya vasitələrində dərc olunacaq.

Komitə sədri həmçinin nəzərə çatdırıb ki, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanındakı yol xəritələrinə əsasən, dövlət strateji sahələrdə institusional dəyişikliklərin edilməsində daha tarazlı yanaşmaya üstünlük verib. İlkin mərhələdə onların restrukturizasiyası və özəlləşdirilməyə hazırlanması istiqamətində birgə təkliflərin irəli sürülməsini aidiyyəti dövlət qurumları və Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılıb.

Eyni zamanda, dövlət əmlakının özəlləşdirilməsi prosesinin geniş vüsət aldığı, bu mərhələdə tətbiq olunan innovativ yanaşmalar, özəlləşdirmə prosedurlarının sadələşdirilməsi, hərrac və müsabiqələrin tam şəffaf şəraitdə keçirilməsi, özəlləşdirilən müəssisələrə dair geniş məlumatların əvvəlcədən komitənin informasiya resursları və kütləvi informasiya vasitələrində yayılması tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Komitə sədri Azərbaycanda iqtisadi sabitliyin bərqərar olması və milli valyutamızın möhkəmləndirilməsinin təxirəsalınmaz makroiqtisadi tədbirlərdən biri olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb və sahibkarları özəlləşdirmədə daha fəal iştirak etməyə dəvət edib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov sahibkarlığın inkişafında özəlləşdirmə prosesinin xüsusi rolunu, yeni iş yerlərinin açılması, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının əhəmiyyətli hissəsinin özəlləşdirilən müəssisələrin payına düşdüyünü söyləyib.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev öz növbəsində sahibkarları özəlləşdirmədə iştirakla bağlı fəallığı artırmağa çağırıb, investisiya yatırımları üçün daşınmaz əmlak bazarında hazırda münbit şəraitin hökm sürdüyünü, bu səbəbdən hərrac və müsabiqələrdə iştirakın məqsədəuyğunluğunu bildirib.

AZPROMO-nun prezidenti Rüfət Məmmədov isə ölkədəki əlverişli investisiya mühiti, dövlət tərəfindən iş adamları üçün yaradılan imkanlar və investisiya fəaliyyətinin təşviqi barədə sahibkarlara məlumat verib.

İşgüzar forum çərçivəsində Əmlak Məsələləri Dövlət Komitəsi ilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında yerli sahibkarların özəlləşdirmədə iştirakının dəstəklənməsi, birgə konfrans və forumların, habelə özəlləşdirilən müəssisələrə infoturların təşkilini əhatə edən əməkdaşlıq haqqında memorandum imzalanıb.

Tədbirdə komitənin əməkdaşları sahibkarlar qarşısında «Özəlləşdirməyə yeni açılmış müəssisələr və investisiya imkanları», habelə «Özəlləşdirmədə müasir yanaşmalar, şəffaflıq və elektron prosedurlar» mövzularında təqdimatlarla çıxış ediblər.

Bu təqdimatlarda özəlləşdirməyə açılmış müəssisə və obyektlər haqqında geniş xülasələr, özəlləşdirmə üçün açıq olan sahələr, potensial investorlara yaradılan yeni imkanlar, hərrac və müsabiqələrdə iştirak prosedurları, özəlləşdirilən əmlaklar haqqında məlumatların əldə edilməsi qaydaları və s. məsələlər haqqında məlumatlar verilib, özəlləşdirmə portalının funksionallığı tədbir iştirakçılarına əyani şəkildə nümayiş etdirilib.

İşgüzar forumun sonunda özəlləşdirmə prosesi ilə bağlı sahibkarları maraqlandıran çoxsaylı suallar komitə nümayəndələri tərəfindən cavablandırılıb, təklifləri dinlənilərək komitənin gələcək fəaliyyətində nəzərə alınmaq üçün qeydiyyata alınıb.

Tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyası bu kimi forumların respublikanın regionlarında da təşkil olunmasına qərar verərək, bu yolla sahibkarların özəlləşdirmə prosesində fəallığının artırılmasına nail olunması mümkünlüyünü ifadə ediblər.

Sahibkarların maraq göstərəcəyi layihələrlə bağlı praktiki konkret addımların atılması üçün komitə tərəfindən əlaqələndirici struktur bölmələri müəyyən olunaraq, onların rəhbərləri sahibkarlara təqdim edilib.

Forumda Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbərliyi ilə yanaşı, İqtisadiyyat Nazirliyi, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyası, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun nümayəndələri, habelə, ölkənin ən iri holdinq, assosiasiya, bank, şirkətlər qrupu və ittifaqlarını təmsil edən 100-dən artıq sahibkarlıq subyekti, məsləhətçi və iş adamları iştirak ediblər.

# Qiymətli kağızlar bazarı böyüyür

Ötən il ölkənin qiymətli kağızlar bazarında artım müşahidə edilmiş, pozitiv kəmiyyət göstəriciləri ilə yanaşı, önəmli keyfiyyət dəyişiklikləri qeydə alınmışdır. Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatına görə, 2016-cı ilin yanvar-dekabr ayları ərzində qiymətli kağızlar bazarı 2015-ci illə müqayisədə 33% artaraq 14,026 milyard manat təşkil etmişdir. İl ərzində qiymətli kağızların ilkin bazarı 4,5 dəfə artaraq 8,669 milyard manata çatmışdır. Ümumilikdə korporativ qiymətli kağızlar bazarının göstəriciləri 2 dəfədən, dövlət qiymətli kağızlar bazarının göstəriciləri isə 40 dəfədən çox artmışdır.

2016-cı il ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 39% artaraq 913 milyon manata çatmasına səbəb olmuşdur. Xüsusilə banklar tərəfindən kapital tələblərinin təmin edilməsi məqsədilə nizamnamə kapitallarının artırılması səhm bazarının artımını şərtləndirən mühüm amil olmuşdur. Ümumilikdə səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği əvvəlki hesabat dövrü ilə müqayisədə 2 dəfədən çox artaraq 563 milyon manata çatmışdır. Hesabat dövründə korporativ istiqrazlarla bağlanmış əqdlərin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artaraq 7,833 milyard manat təşkil etmişdir. Dövlət əhəmiyyətli layihələrin qiymətli kağızlar bazarı vasitəsilə maliyyələşdirilməsi korporativ istiqrazlar bazarının yüksək artım dinamikasını təmin etmiş, nəticədə manatla yerləşdirilmiş korporativ istiqrazların həcmi 4,6 dəfə artaraq 7,5 milyard manata çatmışdır.

Bu dövr ərzində xarici valyutada ticarət olunan korporativ istiqrazlar bazarının həm ilkin, həm də təkrar bazarında da artım müşahidə edilmişdir. Xarici valyutada yerləşdirilmiş korporativ istiqrazların həcmi 13 dəfə artaraq 182 milyon manata çatmış, təkrar bazarda keçirilmiş əməliyyatların həcmi isə 4,1 dəfə artaraq 75,6 milyon manatı ötmüşdür.

2016-cı ildə dövlət istiqrazları bazarında əqdlərin həcmi 2015-ci illə müqayisədə 27,2 dəfə artaraq 567 milyon manat təşkil etmişdir. Dövlət istiqrazlarının təkrar bazarı 7 dəfə artaraq 146 milyon manat olmuşdur. Ölkədə gedən iqtisadi proseslər fonunda ilk dəfə olaraq dövlət istiqrazları üzrə gəlirliliyin bazarda tələb və təklif əsasında formalaşması məqsədilə təqdim edilən sifarişlər üzrə qiymət həddi təyin olunmamışdır. Nəticədə dövlət qiymətli kağızları üzrə orta gəlirlilik göstəricilərində əvvəlki illərdən fərqli olaraq artım müşahidə olunmuşdur. 2016-cı ildə manatla yerləşdirilən qısamüddətli dövlət istiqrazları üzrə orta çəkili gəlirlilik 13,07%-ə yüksəlmişdir. Xarici valyuta ilə ortamüddətli dövlət istiqrazlarının yerləşdirilməsi yalnız bir dəfə baş tutmuşdur ki, onun da gəlirliliyi 3% təşkil etmişdir.

2016-cı il ərzində monetar siyasətin həyata keçirilməsi məqsədilə iki illik fasilədən sonra fond birjasında Mərkəzi Bankın notları yerləşdirilmişdir. Hərrac üsulu ilə yerləşdirilmiş notların ümumi məbləği 268,7 milyon manat olmuşdur. Mərkəzi Bankın notları üzrə orta çəkili gəlirlilik 14,86% təşkil etmişdir.







*Ölkədə gedən iqtisadi proseslər fonunda ilk dəfə olaraq dövlət istiqrazları üzrə gəlirliliyin bazarda tələb və təklif əsasında formalaşması məqsədilə təqdim edilən sifarişlər üzrə qiymət həddi təyin olunmayıb*

Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında da ümumi məbləği 4.168 milyard manat olan valyuta əsaslı və ümumi dəyəri 272 milyon manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir.

2016-cı ildə dövlət istiqrazları ilə ümumi məbləği 2 milyon manat olan iki repo əməliyyatı keçirilmişdir ki, bu da 2015-ci illə müqayisədə 15,6 dəfə azdır.

**AYTƏN**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi

## Azərbaycan Respublikasının Vergilər Nazirliyi ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

## ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014 cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka, bir qayda olaraq, iqtisadiyyat və idarəetmə, hüquqşünaslıq ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən edilmiş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar müsabiqədə iştiraka buraxılmırlar.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 27.02.2017-ci il saat 10:00-dan 12.03.2017-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. **Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın surəti və ali təhsil haqqında diplomun surəti mütləq qaydada elektron fayl şəklində əlavə olunmalıdır.** Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanı vasitəsilə məlumat verilir. Ərizə sistemə daxil olunduqdan beş gün ərzində onun müsabiqədə iştirak üçün qəbul edilib-edilməməsi müvafiq işçi qrup tərəfindən yoxlanılır, ərizə qəbul edilərsə vətəndaşa iş nömrəsi və imtahana buraxılış vərəqəsinin götürülmə tarixi, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat göndərilir.

Vətəndaşlar elektron ərizə formasını doldurmaqda çətinlik çəkdikdə və ya bu zaman hər hansı texniki problemlə rastlaşdıqda, habelə ərizə ilə müraciət etdikləri müddətdən beş gün keçdiyinə baxmayaraq onların elektron poçt ünvanına nazirlik tərəfindən heç bir məlumat göndərilmədikdə 012-403-81-35 və 012-403-88-04 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər 12.04.2017-ci il tarixdən 14.04.2017-ci il tarixdə saat 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 15.04.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 27.02.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**DİQQƏT!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara müsahibə mərhələsində üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində olan vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

beynəlxalq panoram

## Britaniya vergi fırıldağına görə 16 milyard itirib

Ölkədə fəaliyyət gösətərən «Pinsent Masons» hüquq şirkətinin qiymətləndirməsinə əsasən, keçən il vergi fırıldaqlığı ucbatından ölkə büdcəsinin ümumilikdə 16 milyard funt sterlinq ziyanı olmuşdur. Vergi Fırıldaqlarının Araşdırılması Xidməti tərəfindən büdcəyə əlavə 5 milyard vəsait cəlb edilsə də, ödənilməmiş vergilərin ümumi məbləğinin (34 milyard funt sterlinq) təxminən yarısı vergi dələduzluğunun payına düşür. Son 12 ay ərzində büdcəyə cəlb edilmiş 5 milyard vəsaitin 2,2 milyarddan çoxu cinayət-istintaq araşdırmaları, 2,7 milyarddan çoxu isə mülki işlər sayəsində alınmışdır. Xatırladaq ki, tənzimləyici orqan olan bu xidmət Britaniyada 2015-ci ilin iyul ayında təsis edilmişdir.

«Yeni xidmət əlavə vergi məbləğlərinin cəlb edilməsində özünü tam doğrultmuşdur. Lakin vergi dələduzluğu hələ də dövlətin xəzinəsinə böyük ziyan vurmaqdadır, - «Pinsent Masons» şirkətinin vergi məsələləri üzrə direktoru Pol Nobl demişdir. - Vergilər və Yığımlar İdarəsinin bütövlüklə yenidən qurulması və təzə xidmətin yaradılması hökumətin vergi fırıldaqlığını, xüsusilə də «Panama arxivləri» qalmaqalından sonra cəzalandırmaqda qətiyyətli olduğunu nümayiş etdirir».

## Gəlirlər barədə bəyannamə təkmilləşdirilib



Ukraynada yeniləşdirilmiş bəyannamənin indi cəmi iki əlavəsi var və onu doldurmaq bir neçə işəgötürənə malik şəxslər üçün daha rahatdır

2017-ci ildə Ukraynadakı vergi ödəyiciləri əmlak vəziyyəti və gəlirlər haqqında yeniləşdirilmiş bəyannamədən istifadə etməyə başlamışlar. Sənədin blankının işlənilməsi indi daha asandır. Dövlət Fiskal Xidmətinin fiziki şəxslər üzrə vergi və yığımlar departamentinin rəhbəri Pavel Dronyak mətbuata verdiyi açıqlamasında qeyd etmişdir ki, bəyannamənin yeni formasında vergitutma sahəsində son vaxtlar aparılmış dəyişikliklər nəzərə alınmaqla əlavələrin sayı dörddən ikiyə endirilmişdir: «Əvvəllər iki və daha artıq işəgötürəndən məvacib alan və illik maaşlarının ümumi məbləği minimum əməkhaqqından 120 dəfədən artıq olan vergi ödəyiciləri verginin yenidən hesablanması ilə bağlı bəyannamə verməli olduqları halda indi buna ehtiyac yoxdur».

Bundan əlavə, xarici gəlirlərin yenidən hesablanması ilə bağlı bəyannaməyə əlavə də ləğv edilmişdir. Artıq ölkə xaricində əldə olunmuş gəlirlər (vəsaitlərin köçürüldüyü vaxt Mərkəzi Bankın müəyyənləşdirdiyi valyuta kursu əsasında qrivnaya çevrilməklə), müvafiq vergi öhdəlikləri, gəlirin əldə edildiyi ölkə haqqında məlumat və valyutanın adı ayrıca bəyannamə əlavəsi doldurulmadan elə bəyannamənin özündə qeyd olunacaq. Vergi ödəyicilərinin doldurmalı olduqları iki bəyannamə əlavəsində vergilər çıxılmış xərclər nəzərə alınmaqla göstəriləcək: birinci əlavədə investisiya gəlirinin məbləğinin müəyyənləşdirilməsi, ikincidə isə məşğul şəxslərin vergi öhdəliklərinin hesablanması zamanı.

Bu il Ukraynada gəlirlər haqqında bəyannamələr mayın 3-dək (həmin gün də daxil olmaqla) təqdim edilməlidir. Bunu ödəyicilər əvvəlki kimi vergi uçotunda olduqları yerdə yerinə yetirməlidirlər. Elektron bəyannamələr Dövlət Fiskal Xidmətinin rəsmi internet saytındakı «Vergi ödəyicisinin elektron kabineti» xidməti vasitəsilə təqdim oluna bilər. Bəyannamələr poçtla təqdim edildikdə isə müəyyənləşdilmiş son müddətin başa çatmasından 5 gün əvvəl göndərilməlidir.

## İsveçrənin vergi islahatından imtina etməsi narahatlıq doğurur

Avropa Komissiyası İsveçrə vətəndaşlarının referendumda korporativ verginin dərəcəsinə əsaslı şəkildə yenidən baxılmasını nəzərdə tutan vergi islahatına səs vermədiklərinə görə narahatlığını ifadə etmişdir. İsveçrədə keçirilmiş son ümumxalq səsverməsində ölkə vətəndaşları hökumətin transmilli korporasiyalar üçün son dərəcə aşağı vergi dərəcələrinin aradan qaldırılması planına da səs verməmişlər və bununla həmin şirkətlərin kütləvi şəkildə ölkədən çıxmasının qarşısı alınmışdır.

«Komissiya İsveçrədə keçirilmiş referendumun nəticələrindən çox narazıdır, - Aİ-nin iqtisadi və maliyyə məsələləri üzrə komissarı Pyer Moskoviçi bildirmişdir. - Vergi islahatlarının aparılmasından imtina edilməsinin mənası budur ki, vergi məsələləri ilə bağlı işlərdə biz öz səylərimizi ikiqat artırmalıyıq. Avropa Komissiyası üzv dövlətlərlə məsləhətləşmələr aparmağı planlaşdırır, biz gələcəkdə necə hərəkət etməli olduğumuza birlikdə qərar verəcəyik».

İsveçrənin maliyyə naziri Ulrix Mayer isə xəbərdarlıq etmişdir ki, vergi islahatlarının aparılmasından imtina olunması ona gətirib çıxara bilər ki, ölkə vergi limanlarının «qara siyahı»sına salına bilər və ya tərəfdaş dövlətlər İsveçrədə qeydiyyata alınmış şirkətlərə ikiqat vergi tətbiq edə bilərlər.

## Aİ-nin «qara siyahısı» böyüyür

«EUobserver» nəşrinin məlumatlarına əsasən, Avropa İttifaqı rəhbərliyi 92 ölkənin hökumətinə məktub göndərərək xəbərdarlıq etmişdir ki, onların vergi limanlarının siyahısına salınmasının məqsədəuyğun olub-olmadığını müəyyənləşdirmək məqsədilə bağladıqları beynəlxalq vergi sazişləri Avropa Komissiyası tərəfindən araşdırılır.

Xatırladaq ki, Aİ «Panama arxivi»nin qalmaqallı sızdırılmasından sonra vergi limanlarının siyahısını tutacağını vəd etmişdi. Bildirilmişdir ki, siyahının sonuncu variantı bu ilin sonuna qədər tamamlanacaq. Həmin siyahıya ölkələr üç parametr əsasında salınacaq: şəffaflıq, güzəştli vergi rejimləri, eləcə də korporativ verginin tutulmaması və ya sıfır dərəcə ilə tutulması.

Məlumatlara görə, vergi limanlarının «qara siyahı»sına bu ölkələrin adları salınacaq: Hernsi, Çersi, Men adaları, eləcə də Bermud və Kayman adaları. Bununla belə, «EUobserver» anonim mənbəyə əsasən bildirmişdir ki, Aİ məmurları «korporativ vergi dərəcəsinin sıfır olmasını hər hansı ölkənin vergi limanlarının «qara siyahı»sına salınması üçün başlıca səbəb hesab etmirlər».

## Nobel mükafatından vergi tutulub

Görkəmli Belarus yazıçısı Svetlana Aleksiyeviç 2015-ci ildə layiq görüldüyü ədəbiyyat üzrə Nobel mükafatından öz dövlətinə 197 min avro məbləğində vergi ödəmişdir.

Keçən il respublikanın Vergilər və Yığımlar Nazirliyi elan etmişdi ki, Belarus xalqının yeganə Nobel mükafatı laureatını vergi ödəməkdən yalnız ölkə Prezidenti xüsusi fərmanla azad edə bilər.

Qeyd edək ki, S.Aleksiyeviç səkkiz milyon işveç kronu (təxminən 970 min ABŞ dolları) məbləğində pul mükafatı almışdı. Belarusda gəlir vergisinin dərəcəsi 13%-dir. Aleksiyeviçin bildirdiyinə görə, dünyada heç kəs Nobel mükafatından vergi ödəməsə də, o, bununla bağlı ölkə Prezidentinə müraciət etməmişdir. «Ləyaqət daha dəyərlidir», - yazıçı demişdir. Nobel mükafatı laureatı qeyd etmişdir ki, aldığı mükafatdan 100 min dollara yaxın vəsaiti xeyriyyə məqsədləri üçün xərcləmişdir. Lakin ölkə qanunvericiliyində gəlir vergisi tutularkən bu amil nəzərə alınmır.

## Xəbər lenti

**Hindistan** parlamentində dəbdəbəli toyların vergiyə cəlb edilməsi ilə bağlı qanun layihəsinə baxılmışdır. Layihədə 7500 dollardan artıq xərcə başa gələn toylardan xüsusi dövlət hesabına həmin məbləğin 10%-i qədər pul köçürmək və bu vəsaitlə aztəminatlı gənclərin toyuna yardım etmək təklif olunur. Bundan əlavə, dəvət edilən qonaqların və yeməklərin sayına məhdudiyyət qoymaq da təkliflər sırasındadır.

**Belarus Respublikası**nın paytaxtı Minsk şəhərində işsiz vətəndaşlardan tutulan «tüfeylilik vergisi»nə qarşı etiraz aksiyası keçirilmişdir. Mitinqdə minlərlə insan iştirak etmişdir.

**İsveç**in Vergi İdarəsinin məlumatına görə, 2016-cı ildə tikinti sahələrində vergi normalarına riayət edilib-edilmədiyinin dəqiqləşdirilməsi məqsədilə 12 mindən artıq yoxlama keçirilmişdir. Keçən il yanvarın 1-dən əməkdaşların elektron qeydiyyatının tərtib olunması məqsədilə tikinti sahələri üçün yoxlama icbari səciyyə daşıyır.

**Anqola** iqtisadiyyatına həsr olunmuş hesabatında Beynəlxalq Valyuta Fondu hökumətə sabit qeyri-neft gəliri mənbəyi təmin etmək üçün əlavə dəyər vergisi tətbiq etməyi məsləhət görmüşdür.

**Çin**də mobil telefonlar vasitəsilə həyata keçirilən onlayn alğı-satqı bazarının dövriyyəsinin 2020-ci ilədək 1 trilyon ABŞ dollarına çatacağı gözlənilir.

## İtaliyada rekord məbləğdə vergi yığılıb

İtaliya hökumətinin vergi ödəməkdən yayınmaya qarşı qəbul etdiyi yeni proqram sayəsində 2016-cı ildə ölkədə yığılmış verginin məbləği 19 milyard avroya yaxınlaşıb ki, bu da 2015-ci ilin göstəricisindən 28% çoxdur.

İtaliyanın Vergi Xidməti vergi informasiyasının könüllü açıqlanması proqramının həyata keçirilməsi barədə əvvəlcədən elan vermişdi. Bunun nəticəsində 130 min vergi ödəyicisi əvvəllər ödənilməmiş və ya büdcədən gizlədilmiş 4,3 milyad avro məbləğində vergini könüllü şəkildə büdcəyə köçürmüşdür.

Bundan əlavə, proqramda televiziya lisenziyaları üçün ödənişlərin aşağı salınması da nəzərdə tutulmuşdu. Bunun nəticəsində lisenziyaların alınmasından vergi yığımları 25% artaraq 2,1 milyard avro təşkil etmiş, lisenziya almaqdan yayınanların faiz göstəricisi isə keçən il 30%-dən 4%-ə düşmüşdür.

Vergi proqramının nəticələrinin təqdimatı zamanı iqtisadiyyat və maliyyə naziri Karlo Padoan hökumətin müstəqil işləyən və internet üzərindən satış həyata keçirən sahibkarlar üçün «internet vergi» tətbiq etmək niyyətində olduğunu da bildirmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Bir sıra türk xalqlarında, eləcə də Azərbaycanda populyar qadın adı; 2.Saxaranın qərbində səhra; 3.Türk xalqlarının yaşadığı mifik coğrafi ərazi; 4.Qədim Yunanıstanda və Frakiyada mifik şair Orfeyanın adı ilə bağlı, təxminən e.ə. VI əsrə aid mistik dini cərəyan, təlim; 5.Ekran və ya monitorda «qaçan sətir» formasında ekranın aşağısında səhmlərin, simvolların, əməliyyatların həcminin və yerinə yetirildiyi qiymətlərin ardıcıl olaraq təqdim olunması; 6.Tutuquşukimilər dəstəsinə aid fəsilə; 9.Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professorun adı; 13.Gürcüstan ərazisində Böyük Qafqaz sıra dağlarının ən yüksək zirvələrindən biri; 15.İngiltərənin şərqində yerləşən qraflıq; 16.Nizami Gəncəvinin «Xosrov və Şirin» poemasının qəhrəmanlarından biri; 17.Rusiyanın Kalininqrad vilayətində şəhər; 18.Ofislərdə kağızı çox xırda hissələrə kəsən xüsusi avadanlıq; 20.Dinc oturmayan, rahat durmayan, nadinc; 21.Rəşadətli, cəsur, qəhrəman.

**Soldan sağa:** 1.Diyircəklərlə hərəkət edən idman avadanlığı; 5.Bircə, yeganə; 7.Riyaziyyat termini. Verilən bir ədədi almaq üçün kökün vurulacağı üst dərəcə; 8.Altay diyarında yayla; 10.Metrik ölçü sistemi qəbul olunanadək işlədilən uzunluq ölçüsü (0,71 metrə bərabərdir); 11.Alman-skandinav rəvayət və dastanlarda aparıcı qəhrəmanlardan biri; 12.Şumer-akkad mifologiyalarında müharibə tanrısı; 14.Qədim türk su və yaşıllıq tanrısı; 19.XVIII əsrin 40-cı illəri - XIX əsrin əvvəllərində Cənubi Azərbaycan ərazisində (indiki İran) mövcud olmuş xanlıq; 21.Fransanın şimal-qərbində şəhər; 22.Məkkəni ziyarət etmiş müsəlmanlara verilən ad; 23.Bazara qısa zaman ərzində böyük həcmdə məhsulun, aktivin daxil olması, dolması nəticəsində qiymətin ciddi şəkildə düşməsi; 24.Hind zərb çalğı aləti; 25.Komi Respublikasının paytaxtı.



*Hind zərb çalğı aləti*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Deport; 2.Palitra; 3.Rondo; 4.İquana; 5.Kazan; 6.Teleks; 9.Ələt; 13.Nida; 15.Mezozoy; 16.Mirəli *(Mirqasımov)*; 17.Ağdərə; 18.Klimov; 20.Asiya; 21.Fərid *(Mansurov)*. **Soldan sağa:** 1.Deportivo; 5.Küt; 7.Polonium; 8.AZAL; 10.Retro; 11.Nolinsk; 12.Damno; 14.Atami; 19.İlandağ; 21.Fazil *(Salayev)*; 22.Əşir *(Əşir Bəşir oğlu Fətəliyev)*; 23.Sədrəzəm; 24.İra; 25.Əfəndiyev *(İsmayıl)*.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Güləş yığmamız İrandan bürünc medalla qayıtdı

**Fevralın 17-də İran İslam Respublikasının Kirmanşah şəhərində böyüklər arasında sərbəst güləş üzrə Dünya kuboku yarışları başa çatıb. Püşkatmanın nəticəsinə əsasən, yığma komandamız Rusiya, Gürcüstan və ABŞ idmançıları ilə «A» yarımqrupunda mübarizə aparıb.**

İlk görüşdə Rusiya idmançıları ilə qarşılaşan güləşçilərimiz görüşü 4:4 hesablı bərabərliklə bitiriblər. Ancaq xalların keyfiyyətinə görə 32:29 hesabı ilə öndə olan yığmamız görüşü qalib başa vurub. Yarımqrupun ikinci görüşündə yığmamız Gürcüstan güləşçilərini 5:3 hesabı ilə məğlub edib.

Yarımqrupun son görüşünü komandamız ABŞ idmançılarına qarşı keçirib. Ümumi hesab 4:4 olsa da, texniki xallara görə, 20:14 hesabı ilə üstün olan ABŞ idmançıları finala yüksəliblər. Bununla da yığmamız digər yarımqrupun ikincisi olan Türkiyə komandası ilə üçüncü yer uğrunda görüşə çıxıb. Rəqibə 7:1 hesabı ilə qalib gələn güləşçilərimiz Dünya kubokunu üçüncü sırada tamamlayıb və bürünc medala sahib olublar.



# Avropa kuboku Azərbaycanda...

İspaniyada yeniyetmələr arasında cüdo üzrə Avropa kubokuna yekun vurulub. Yarışın sonuncu günü Azərbaycan milli komandası 1 qızıl və 1 gümüş medal qazanıb. Ölkəmizi təmsil edən Məhəmməd Abdullayev (90 kq-dan yuxarı) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Digər idmançımız Adil Kərimli (90 kq) yalnız final görüşündə qələbəni əldən verib və gümüş medala layiq görülüb.

Xatırladaq ki, yarışın ilk günü Azərbaycan milli komandasının üzvləri 3 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Ayxan Tanrıverdiyev (55 kq), Vüsal İbrahimov (60 kq) və Vüsalə Kərimova (40 kq) bütün rəqiblərindən üstün olaraq turnirin qızıl medallarına sahib olublar. Knyaz Mahmudlu (66 kq) gümüş, Nazir Talıbov isə Avropa kubokunun bürünc medalına yiyələniblər. Bununla da 4 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında Avropa kubokunda birinci olub.

Qeyd edək ki, 21 ölkədən 423 idmançının (234 oğlan, 189 qız) mübarizə apardığı mötəbər turnirdə Azərbaycan milli komandası 16 cüdoçu (12 oğlan, 4 qız) ilə təmsil olunub.

# Azərbaycan daha bir mötəbər idman tədbirinə ev sahibliyi etdi



Fevralın 18-də Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Bakıda keçirilən batut gimnastikası və tamblinq üzrə Dünya kuboku yarışlarının təntənəli açılış mərasimi olub. Milli Gimnastika Arenasında keçirilən mərasimdə əvvəlcə yarışlarda iştirak edən ölkələrin bayraqları meydana gətirilib. Çıxışlardan sonra gənc gimnastların iştirakı ilə «Azərbaycan gimnastikasının gələcəyi» adlı kompozisiya təqdim olunub.

Daha sonra yarışlara start verilib. 15 ölkədən 85 batutçu və tamblinqçinin qatıldığı yarışda Azərbaycanı fərdi və sinxron proqramda İlya Qrişunin, Oleq Piunov, Ruslan Ağamirov, Svetlana Makştarova, Veronika Zemlyanaya və tamblinq cığırında Mixail Malkin təmsil ediblər.



İki gün davam edən yarışlarda kişi batutçular arasında Olimpiya Oyunlarının qızıl medalçısı Vladislav Qonçarov (Belarus), gümüş medalçı Dmitri Uşakov (Rusiya), dünya çempionatlarının mükafatçıları Sebastyan Martini (Fransa), Andrey Yudin (Rusiya), Mixail Melnik (Rusiya), qadın batutçulardan Tatyana Petrenya (Belarus) və Anna Kornetskaya (Rusiya) yer alıblar. Tamblinq cığırında isə kişilər arasında dünya çempionatının gümüş medalçısı Qriqori Noskov (Rusiya), qadınlar arasında Avropa çempionatının qızıl medalçısı Anna Korobeynikova (Rusiya), o cümlədən dünya və Avropa çempionatının gümüş medalçısı Lusi Kolbek (Böyük Britaniya) və digər gimnastlar məharətlərini nümayiş etdiriblər.

Azərbaycan təmsilçisi İlya Qrişunin 110,715 xal yığaraq beşinci nəticə ilə Dünya kubokunun finalına çıxıb. Ondan başqa, finala müvafiq olaraq birinci və üçüncü yeri tutmaqla Rusiya nümayəndələri Dmitri Uşakov (112,990 xal) və Mixail Melnik (111,285 xal) vəsiqə qazanıb. Digər finalçılar belaruslu Oleq Ryabtsev, Portuqaliyadan Dioqo Abreu, qazaxıstanlı Pirməmməd Əliyev və yaponiyalı Masaki İto olub.

Azərbaycan gimnastı Mixail Malkin batut gimnastikası və tamblinq üzrə FIG Dünya kubokunda gümüş medala yiyələnib. İdmançımız tamblinq cığırında final yarışlarında 72.100 balla ikinci olub. 74.600 bal toplayan rusiyalı gimnast Qriqori Noskov fəxri kürsünün ən yüksək pilləsində, Britaniya təmsilçisi Elliot Braun isə üçüncü pillədə (71.900) qərarlaşıb.

## mozaika

### mədəniyyət

# Həmyerlimiz Londonda konsert verəcək



Parisdə yaşayan pianoçu və bəstəkar Renara Axundova martın 9-da Londonda «Rossotrudniçestvo» agentliyinin Böyük Britaniyadakı nümayəndəliyində «Art is Truth» adlı solo konsert proqramı ilə çıxış edəcək.

Bakıda ziyalı ailəsində anadan olan Renara Axundova ilk musiqi təhsilini Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində musiqi məktəbində alıb. Moskva Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirdikdən sonra tale onu Fransaya gətirib və o, Parisdə musiqi sənəti ilə ciddi məşğul olmağa başlayıb.

İlk solo konserti 2007-ci ildə Tallində olub. Həmin vaxtdan da Renara Axundova Rusiya, Küveyt, ABŞ və bir sıra Avropa ölkələrində konsert proqramları ilə çıxış edib.

### qalaktika

# Kosmosa yük gəmisi göndəriləcək

Çinin ilk kosmik yük gəmisi olan «Tiencou-1» cari ilin aprelində orbitə buraxılacaq. Gəmi Çinin şimalındakı liman şəhəri olan Tiencində hazırlanıb. «Tiencou-1» artıq bu ölkənin Haynan əyalətində fəaliyyət göstərən Vınçang Atma Mərkəzinə gətirilib.

Yük gəmisi burada montaj və test prosedurundan keçərək orbitə buraxılması üçün hazır vəziyyətə gətiriləcək.

Altı ton yük daşıya biləcək «Tiencou-1» orbitdə kosmik stansiyanın yaradılması istiqamətində böyük töhfələr verəcək.



### texnologiya

# Yumurta qabığından... yeni nəsil kompüter

Çinli alimlər tərəfindən məlumatların saxlanılması üçün hazırlanmış yeni qurğunun əsasını xırdalanmış yumurta qabığı təşkil edir. Yeni həll daha sürətli və ekoloji cəhətdən təmiz kompüterlər yaratmağa kömək edə bilər.

Quyçjou Texnologiya İnstitutunun alimləri yumurta qabığını nanoölçü tozu halına gətiriblər. Bu tozu qurutduqdan sonra onu məhlulda həll edib və yaddaş çipinin elektrik cərəyanı keçirən elektrolit səthinə sürtüblər.

Yeni həll növbəti nəsil məlumatların saxlanılması qurğularının vacib komponenti olan rezistiv əməli yaddaşdır («ReRAM»). «ReRAM» adi əməli yaddaşdan daha sürətli işləyir, məlumatların saxlanılması üçün daha yüksək sıxlığı təmin edir, dinamik «RAM» və ya fləş yaddaşla müqayisədə daha az enerji sərf edir.

### cəmiyyət

# «Quş qripi»nə görə növbəti monitorinq

Bu xəstəliyin Azərbaycana köçəri quşlarla keçmə ehtimalını diqqət mərkəzində saxlayan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti ölkə miqyasında ardıcıl monitorinqləri davam etdirir.

Fevralın 13-də köçəri quşların yaz miqrasiyasının başlanmasını nəzərə alaraq, növbəti monitorinqə start verilib. Monitorinq Dövlət Baytarlıq Nəzarəti Xidmətinin, Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin mütəxəssis və əməkdaşlarının iştirakı ilə aparılır.

Monitorinqin köçəri quşların müvəqqəti məskunlaşdığı ehtimal olunan Abşeron yarımadası, Şabran, Ağcabədi, Lənkəran və Salyan rayonlarındakı milli qoruq və parklarda, həmçinin ölkənin dəniz sahili zonalarında və digər ərazilərində həyata keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, monitorinq aparılan müddətdə quşçuluq və şəxsi təsərrüfatlardan da nümunələr götürüləcək.

Ölkə ərazisində köçəri və ev quşları arasında aparılacaq monitorinq zamanı götürüləcək qan və patoloji materiallar Respublika Baytarlıq Laboratoriyasında müayinə olunacaq və nəticələr ictimaiyyətə açıqlanacaq.

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti bildirir ki, hazırda «quş qripi» və digər kəskin yoluxucu xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir.





ELAN

**«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

**VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581**
**VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22**

**Müdriklər deyib ki...**



*«Həyatın müdrikliyi hər zaman insanın müdrikliyindən dərin və əhatəlidir».*
*Maksim Qorki (1868-1936)*